

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 10 (24.445)

8 mart 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Azərbaycan-Türkiyə qardaşlığının yeni reallığı – İğdır-Naxçıvan qaz kəməri



Tarixən Böyük İpək Yolunun ayrılmaz parçası olan, qədim karvan yollarının üzərində yerləşən Naxçıvan yaxın coğrafiyada məskunlaşan, xüsusilə də türk kökənli xalqların mədəni dialoq mərkəzi, zəngin sivilizasiya qovşağı kimi tanınıb. Müasir dövrdə də dil, din yaxınlığı olan respublikaların birliyinə, bərabərliyinə xidmət edən Oğuz yurdu dövlətimizin Vətən müharibəsindən sonra regionda yaratdığı yeni reallıqlar fonunda iqtisadi əlaqələr sistemindəki əvvəlki şöhrətini yenidən bərpa etməyin astanasındadır. Bu xüsusda "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan layihələrin reallaşdırılması mühüm əhəmiyyət daşıyır. Proqramda yer alan, 2023-cü il sentyabrın 25-də iki qardaş ölkə – Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan və bu il martın 5-də liderlərin iştirakı ilə videobağlantı formatında açılışı olan İğdır-Naxçıvan qaz kəməri muxtar respublikanın dayanıqlı enerji təminatında vacib rol oynamaqla yanaşı, gələcəkdə regional iqtisadi əlaqələr sisteminin genişlənməsinə, yeni əməkdaşlıqların formalaşmasına da təkan verəcək. Bu baxımdan sözügedən layihə həm də ölkə başçısının ***"Naxçıvanla bağlı böyük planlarımız var"*** ideyası istiqamətində görülən işlərin tərkib hissəsi olaraq mühüm addım kimi olduqca dəyərlidir.

Naxçıvanın müasir inkişafına əhəmiyyətli təkan verəcək İğdır-Naxçıvan qaz kəməri barədə danışan zaman muxtar respublikanın keçdiyi tarixi keşməkeşli yola, blokadaya düşmə səbəbinə, qıtlıqdan, enerji çatışmazlığından əziyyət çəkdiyi illərə nəzər salmasaq olmaz. Məlum olduğu üzrə 1920-ci ildə Xalq Cümhuriyyətinin süqutundan beş ay sonra sovet hakimiyyətinin Qərbi Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana birləşdirməsi nəticəsində Azərbaycanın onun ayrılmaz hissəsi olan Naxçıvanla quru bağlantısı pozuldu. Ötən əsrin 90-cı illərində isə Qarabağın erməni işğalına düşməsi ilə muxtar respublika məqsədli şəkildə blokadaya salındı, bir tərəfdən aclıq, səfalət, digər yandan torpaqlarının işğal təhlükəsi Naxçıvanda, sözün əsl mənasında, çıxılmaz vəziyyət yaratdı. Məhz belə bir ağır məqamda Ümummilli Liderimizin tarixi qərarları, mütərəqqi addımları sayəsində güclənən milli həmrəylik və Türkiyə-Azərbaycan qardaşlığı muxtar respublikanı bəlalardan qurtardı.

Səhifə ➡ 2

## Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişikliyinə qarşı mübarizə və ekoloji dayanıqlılığın artırılması üçün ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və istifadəsinin genişləndirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan şəhərinin ictimai nəqliyyat sistemində sərnişin daşımalarının yalnız elektrik mühərrikli avtobuslarla təşkili məqsədilə 60 ədəd elektrik mühərrikli avtobusun alınması və enerjidoldurma cihazlarının quraşdırılması, habelə həmin avtobuslara xidmət səviyyəsinin yüksəldilməsi üçün depo (qaraj) infrastrukturunun təkmilləşdirilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının 1.12.4.4.12-ci abzasında nəzərdə tutulmuş vəsait hesabına nizamnamə kapitalının artırılması yolu ilə "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinə 33.449.000,0 (otuz üç milyon dörd yüz qırx doqquz min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 4 mart 2025-ci il*

## 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm. Hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan qadınları hər zaman cəmiyyətimizin mənəvi dayağı olmuş, daim ülvi amallarla yaşamışlar. Çoxəsrlik mədəni-mənəvi sərvətlərimizin günümüzədək layiqincə qorunub saxlanılmasında nəcib və gözəl analarımızın misilsiz xidməti vardır. Onlar öz güclü iradələri, vətənpərvərlik və fədakarlıqları ilə yurdumuzun mübarizə salnaməsində silinməz izlər qoymuşlar.

Azərbaycan qadınlarının dünyanın bir sıra qabaqcıl ölkələrinin qadınlarından daha əvvəl seçib-seçilmək hüququ qazanmaları yeni dövr tariximizin əlamətdar faktlarındandır. Mədəniyyət, elm, təhsil və səhiyyənin ən müxtəlif istiqamətləri üzrə müsəlman Şərqinin qadınları arasında ilk addımları atmaları onların yüksək yaradıcı potensialının nəticəsidir. Təqdirəlayiq haldır ki, müasir gənc xanımlarımız bu ənənələrə ehtiram bəsləyir, nəsillərin mənəvi varisliyi prinsipini lazımınca qoruyur, öz maarifpərvər, ziyalı sələflərinin yolunu uğurla davam etdirirlər.

Ötən müddət ərzində milli dövlət quruculuğu prosesində yaxından iştirak edərək bütün sahələrdə əzmlə çalışan qadınlarımız Vətənimizin qüdrətinin artırılması, xalqımızın rifahının yüksəlməsi naminə dolğun və səmərəli fəaliyyət göstərmiş, sosial-iqtisadi və mədəni inkişafda mühüm nailiyyətlər əldə etmişlər.

Müqəddəs ailə dəyərlərimizə dərin sədaqət nümayiş etdirən qadınlarımız ölkəmizin ictimai həyatında böyük nüfuza malikdirlər. Əminəm ki, onlar gənc nəslin Vətənə və milli ideallara bağlılıq ruhunda yetişməsi üçün bundan sonra da qüvvələrini əsirgəməyəcək, həmçinin ictimai-mənəvi mühitimizi yeni töhfələrlə zənginləşdirəcəklər.

Əziz xanımlar!

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 5 mart 2025-ci il*

# Azərbaycan-Türkiyə qardaşlığının yeni reallığı – İğdır-Naxçıvan qaz kəməri



## Prezident İlham ƏLİYEV:

*“Bugünkü mərasim bir daha Türkiyə-Azərbaycan birliyini, dostluğunu, qardaşlığını göstərir, onun əyani təzahürüdür. Əminəm ki, Naxçıvanda yaşayan 500 minə yaxın soydaşımız bu gün gözəl Ramazan ayında bu mərasimi də bayram kimi qeyd edəcək.”*

*(əvvəli 1-ci səhifədə)*

Ümummilli Liderin qardaş ölkəyə səfərindən iki ay sonra, daha dəqiq desək, 1992-ci il mayın 28-də arzuların, ümidlərin çiçək açdığı Sədərək-Dilucu “Ümid” körpüsü istifadəyə verildi. İnsanların maddi rifah halının yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına, Qərbə inteqrasiyasına yol açan bu addım, eyni zamanda həmin dövrdə Sədərək və Şahtaxtı gömrük-keçid məntəqələrinin fəaliyyətə başlaması, Naxçıvanın Türkiyənin yaxın vilayətləri ilə iqtisadi, ticarət əlaqələrinin genişlənməsinə, beynəlxalq daşımalara qoşularaq nəqliyyat imkanlarının artmasına da təkan verdi.

Bu il martın 5-də Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev də ilk olaraq məhz bu mühüm məqamlara toxundu, Naxçıvanın Ulu Öndərin tarixi xidmətləri, Türkiyənin qardaş dəstəyi sayəsində rifah yoluna qədəm qoyduğunu vurğuladı: ***“Xüsusilə Birinci Qarabağ savaşı başlayan kimi Ermənistan Qarabağı işğal etdi və eyni zamanda Naxçıvanı blokadaya aldı. Onların planları Naxçıvanı da işğal etmək idi. Ancaq o zaman mənim atam Heydər Əliyev Naxçıvanın rəhbəri kimi buna imkan vermədi və Naxçıvanı qorumaq üçün bütün naxçıvanlılar səfərbər oldular, öz doğma torpaqlarını qorudular və işğalçını yerində oturtdular. Naxçıvanın o zaman işğal altına düşməməsinin səbəblərindən biri də o idi ki, o zaman Naxçıvanı Türkiyə ilə birləşdirən “Ümid” körpüsü inşa edilmişdir və Türkiyədən gələn yardımlar Naxçıvanın qorunmasına çox önəmli töhfə vermişdir”.***

Blokada şəraitində yaşayan Naxçıvan üçün geniş perspektivlər vəd edən İğdır-Naxçıvan qaz kəməri layihəsi isə hələ 16 il bundan öncə ali səviyyədə gündəmə gətirildi. Daha dəqiq desək, 2008-ci ilin iyun ayında Azərbaycan Prezidenti İlham Əliyevlə həmin vaxt Türkiyənin Baş naziri olmuş Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri çərçivəsində müzakirə edilmiş məsələlərdən biri də muxtar respublikaya Türkiyədən qaz xəttinin çəkilməsi idi. Səfərlə bağlı jurnalistlərin suallarını cavablandıran Prezident İlham Əliyev Azərbaycanın Türkiyəyə təbii qazın ixracının artmasından sonra bu ölkə vasitəsilə Naxçıvana da qaz ötürüləcəyini qeyd etmişdi: ***“Bildiyiniz kimi, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə düşməsindən və Azərbaycan qazının Türkiyə bazarlarına daxil olmasından sonra, xüsusilə gələcəkdə bu qazın həcminin artımından sonra Türkiyənin Naxçıvanla həmsərhəd olan bölgələrinə də təbii qazın verilməsi nəzərdə tutulur. Əlbəttə ki, bu layihənin təbii davamı olaraq Naxçıvanın bu xəttə birləşməsi də mümkündür. Bu məsələ müzakirə olundu və müvafiq tapşırıqlar verilmişdir”.***

2010-cu ildə əldə olunan razılaşmaya rəğmən həmin zaman müəyyən iqtisadi amillərdən, xüsusilə də qardaş ölkənin təbii qaza olan ehtiyacı, bir mənbədən daha çox asılılıqdan irəli gələrək qiymətin yüksəkliyi layihənin gerçəkləşməsini mümkünsüz etdi. Ancaq son illərdə Bakı-Tbilisi-Ərzurum və TANAP vasitəsilə Azərbaycanın Türkiyənin qaz bazarında payının artması Naxçıvana mavi yanacağın nəqli üçün də əlverişli şərait yaratdı. Prezident İlham Əliyev martın 5-də Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılışı mərasimində də BTQ-nin Türk dünyasını birləşdirmək baxımından böyük üstünlüyə malik olduğunu diqqətə çatdırdı. Sitat: ***“Bu gün Türkiyəni Azərbaycanla birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu çox gözəl üstünlüklər təmin edir, həm ölkələrimiz üçün, həm daha geniş coğrafiya üçün. Xüsusilə Türk dünyasını birləşdirmək üçün bu nəqliyyat bağlantısının çox böyük mənası, çox böyük faydası var və təbii olaraq, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün Türk dünyasına böyük bir töhfədir”.***

İğdır-Naxçıvan qaz kəmərinin istifadəyə verilməsi, digər tərəfdən, Azərbaycanın qalib ölkə olaraq nüfuzunu artırması və beləliklə də, bölgədə yaratdığı yeni reallıqlarla bilavasitə əlaqəlidir. Hadisələrin gedişatı da bu fikri xeyli qüvvətləndirir. Belə ki, sözügedən kəmərin tikintisi üçün ilkin real anlaşma 2020-ci ilin dekabrın 15-də Ankarada əldə edildi. Həmin vaxtdan, təxminən, bir ay öncə ölkəmiz Vətən müharibəsində misilsiz zəfər qazanmışdı. Layihənin icrası Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Türkiyənin BOTAŞ şirkətinə həvalə edildi. Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il 10 fevral tarixli Sərəncamına əsasən isə bu kəmərin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrıldı. 2023-cü ilin sentyabr ayında ölkəmiz dövlət suverenliyini tam təmin etdikdən 5 gün sonra isə həmin kəmərin təməli atıldı. Və martın 5-də Ankarada videoformatda hər iki ölkə Prezidenti 5 il öncə əldə olunan real anlaşmanın praktik nəticəsinə şahidlik etdilər. Bu mənada, atılan addımlar zaman və hadisələrin gedişatı baxımından təsadüfi deyil. Sözügedən proseslər ölkə başçısının Vətən müharibəsi zamanı dediyi tarixi fikirlərini bir daha xatırladır: ***“Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm...”***

Xatırladaq ki, Türkiyənin İğdır vilayətindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonuna qədər olan boru kəmərinin uzunluğu 97,5 kilometrdir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 17,5, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometr təşkil edir. Layihə çərçivəsində Dilucu məntəqəsində tikilən qazpaylayıcı stansiya 20 min kvadratmetr sahəni əhatə edir ki, bu da boru kəməri ilə qaz axını balansını təmin etməyə, mavi yanacağı Naxçıvana ən təhlükəsiz şəkildə daxil olmağa imkan yaradır. Eyni zamanda boru kəməri ilə gündə 2, ildə isə 730 milyon kubmetr qaz ötürmək mümkün olacaq ki, bu da Naxçıvanın təbii qaza tələbatını tam ödəyəcək. Açılış mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu kəmərin iki ölkənin enerji sahəsində daha əvvəlki birgə strateji təşəbbüslərini tamamlayacağını, xüsusilə Naxçıvanın təbii qaz ehtiyacının hamısını ən azı 30 il müddətində təmin edəcəyini vurğuladı.

Ümumilikdə, onu demək olar ki, Azərbaycan-Türkiyə qardaşlığının regionda yaratdığı yeni reallıqlar fonunda mühüm layihə sayılan İğdır-Naxçıvan qaz kəməri nəinki muxtar respublikanın mavi yanacağa olan tələbatını səmərəli şəkildə tam ödəyəcək, eyni zamanda gələcəkdə yeni nəqliyyat xətləri açıldığı təqdirdə Avropaya da çıxış imkanı yaradacaq. Bu mötəbər tarixi hadisə bir daha ölkələrimiz arasındakı dostluğun sarsılmazlığını, qardaşlıq bağının möhkəmlənməsində Naxçıvanın mühüm rolu olduğunu nümayiş etdirir. Və təqdirəlayiq haldır ki, 2021-ci ildə Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik səviyyəsinə yüksələn əlaqələrimiz hazırda nəinki bu iki qardaş respublikalara, sərhədlərimizi aşaraq bütün regiona, Türk dünyasına, Avrasiyaya əhəmiyyətli töhfələr verir. Kəmərin videobağlantı formatında açılışında ölkə Prezidenti İlham Əliyevin də dediyi kimi: ***“Bu gün Türkiyə və Azərbaycan – iki qardaş ölkə nəhəng layihələr reallaşdırır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi neft-qaz boru xətləri layihələri nəinki ölkələrimizi birləşdirdi, eyni zamanda Avrasiyanın enerji xəritəsini dəyişdirdi. Bu gün Azərbaycandan Türkiyə ərazisindən gedən qaz bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir”.***

**✍ Nail ƏSGƏROV**



# Necə də şərəflidir, Azərbaycan qadını adını daşımaq!

*Tanrının qüdrətindən doğan möcüzədir qadın. O, kainatın incə, zərif, ecazkar yaradıcılıq əsəridir. Qadın bəşəriyyətə həyat verən, sevgi ilə bəsləyən, mərhəmətlə yaşadan bir nur mənbəyidir. Qaranlığa işıq, ümidsizliyə inamdır qadın. Varlığında daim bir eşq, ülviyyət çağlayır, yaşam boyu düşüncəsinin işığında yaratmaq, yaşatmaq zəhməti, sevgisi ilə çırpınır özünün mərhəməti, şəfqəti, dəyanəti ilə alilaşir. Varlığın zirvəsi olan qadın, təkcə həyatın davamı deyil, o həm də tarixin, mədəniyyətin, dövlətçiliyin, azadlığın və qəhrəmanlığın bünövrəsidir.*

Azərbaycan qadını cəmiyyətin hər sahəsində öz möhürünü vuran qüdrətli bir simadır. Onun məğrurluğu bu torpağın hər qarışına hopub. O namus və ismətin aynasıdır. İffəti ilə parlayan bir ulduz, ləyaqəti ilə yol göstərən bir çıraqdır. Onun dəyəri öz varlığının dərinliyindədir. O, pak düşüncənin, təmiz ruhun təcəssümüdür. O, şəhid anaların timsalında səbir, dəyanət rəmzi, qazi xanımlarının timsalında məlhəm, şəfqət dolu qəlbdir. Azərbaycan qadını mətinliyini, təmkinini, dözümünü oğulların qarşılayan zaman bir ağızdan "Vətən sağ olsun!" – deyəndə bir daha sübut etdi.

İsmətinə, zərifliyinə, mətinliyinə, heyranlıq duymamaq mümkün deyil hünər, cəsarət mücəssəməsi Azərbaycan qadınının! Odur dünyaya Tomrisin timsalında sərkərdə, Sara xatının timsalında diplomat qadın nümunəsi! Ədəb, mərifət və ədalətlə taxta ucalan Şirin, Məhin banu, Nüşabə! Döyüş meydanına cəngavərtək atılan vətənpərvər Burla xatın, Banuçiçək! Qadınların azadlıq hüququnu tərənnüm edən ziyalı Məhsəti Gəncəvi! Fətəli xanın sədaqətli həyat yoldaşı vəfadar Tuti Bikə! Zamanın gərdişini, tarixin gedişatını dəyişən, Azərbaycan qadınına ehtiramın ifadəsi olaraq şərəfinə Şərqdə ilk abidə ucaldılan Möminə xatın! Şuşada ədəbiyyat məclisinin yaradıcısı, xeyirxah Xurşidbanu Natəvan! Döyüş meydanında qoç Koroğlunun silahdaşı, qeyrət qalası Nigar! Qaçaq Nəbinin dayağı, şücaətli, qoçaq Həcər! Bizim tarixi irsimizdir əfsanəyə çevrilərək təfəkkürümüzə hopan mərd Azərbaycan qadınları... Onlar Azərbaycan qadınının uca adının unudulmaz müəllifləridir.

Bu gün bu ali duyğuları, müsbət əxlaqi keyfiyyətləri, nəcib xüsusiyyətləri özündə təcəssüm etdirən bir xanımlar xanımı var! Çağdaş zamanımızın Nigarı, Həcəri, Tomrisi, Sara xatını! Banuçiçəyi, Burlaxatını! Şirini, Nüşabəsi, Möminə xatını! O dünya xanımlarına örnəkdir! Kiçikdən-böyüyə hər kəsin könlündə taxt quran, xeyirxah əməlləri ilə ürəklərdə dərin məhəbbət qazanan, özünün ifadəsi ilə desək, "Bizim Mehribanımız..." Xalqa müraciətinin sonunda "Sizin Mehriban" imzasını qoyan Mehriban xanım Əliyeva bu ifadə ilə yurdunun insanlarına öz doğmalığını, mehribanlığını göstərib. Onu xalqa sevdirən təkcə sadəliyi, səmimiyyəti, təvazökarlığı deyil. O həm də insanların qayğıları ilə maraqlanan, gün-güzəranına biganə qalmayan xalq himayədarı kimi hər kəsin sevimlisinə çevrilib, xalqın mənəvi dostu olub.

Şəhid ailələrinə, qazilərə diqqət, yaşlılara qayğı, hörmət, uşaqlara mehr-məhəbbət, qadınlara dəstək Azərbaycan qadınının şəfqətinin nəcib göstəricisi kimi Mehriban xanımın milli xarakteri fonunda inikas olunub. Onun müsbət insani keyfiyyətləri ilə yanaşı, ictimai-siyasi fəaliyyəti o qədər zəngin və parlaqdır ki, onu bütün incəlikləri ilə qədər təsvir etmək, sadalamaq qeyri-mümkündür. Son dərəcə qiymətli keyfiyyətləri özündə əks etdirən Mehriban xanım Əliyeva cəsur, mərd ürəkli qadın, sədaqətli həyat yoldaşı, qayğıkeş ana olmaqla yanaşı, həm də səriştəli, məharətli, nümunəvi, uzaqgörən ictimai xadimdir.

Deyirlər, "Hər uğurlu kişinin arxasında ağıllı bir qadın dayanır". Mehriban xanım da məhz belə qadınlardandır. O ən çətin situasiyalarda dövlət başçımızın yanında olub, xalqın qalib liderinin böyük məsuliyyətinin icrasında da ona dəstək göstərib. 44 günlük Vətən müharibəsində qazandığımız qələbəyə aparan təlatümlü yollarda Mehriban xanım Əliyeva ölkə Prezidenti ilə çiyin-çiyinə dayanıb. Təsadüfi deyil ki, Prezident İlham Əliyev işğaldan azad olunan ərazilərimizə baxış zamanı, yenidənqurma işləri ilə tanış olarkən daim xanım Əliyeva ilə yan-yana olub, bu mühüm səfərlərdə onunla birgə böyük işlərə imza atıb. Çünki Azərbaycanın Zəfər zirvəsinə ucalmağında onun əvəzedilməz xidmətləri var. İşğaldan azad torpaqlarımız üçün ən böyük siyasi mücadilələrdən birini məhz birinci xanım verib. Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında və haqlı tərəfin sübut və faktlarla nümayişinin altında Mehriban xanım Əliyevanın böyük imzası var.

...Atalar deyib ki, qadın olan yer cənnətə bərabərdir. Harada ki, qadın var, orada səadət var, sülh, sabitlik, əmin-amanlıq, isti ocaq var! Qoy isti ocağımız sönməz, əbədi məşələ çevrilsin! Adı daim uca tutulan, müqəddəs amal və ideya uğrunda vuruşan, ən ağır vəziyyətlərdə belə sarsılmayan, mətanət və mərdlik rəmzi olan iradəli Azərbaycan qadını bəşəriyyət naminə ruhunda daşıdığı məsuliyyət hissi, mərhəmət, vəfa, etibar, duyğuları, ən gözəl geyimi olan isməti, namusu, qeyrəti ilə daim zirvələrə ucalsın!

**Gülcamal TAHİROVA**

## Naxçıvanla bağlı Sərəncam ölkəmizin iqlim dəyişikliyinə qarşı mübarizəsində mühüm addımlardandır

Naxçıvan Muxtar Respublikasında bu gün həyatın bütün sahələrində yeniləşmə prosesləri gedir, müasir infrastruktur quruculuğu aparılır. Bu xüsusda Prezident cənab İlham Əliyevin muxtar respublikanın "yaşıl enerji zonası"na çevrilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrin icrası mühüm inkişaf konsepsiyası kimi diqqəti çəkir. Dövlət başçısının 2023-cü il iyunun 5-də imzaladığı Sərəncama əsasən qəbul olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da bir sıra sahələrdə tərəqqinin əldə olunması məqsədilə "yaşıl texnologiyalar"dan istifadənin təmini üçün müvafiq tədbirlərin icrasına geniş yer verilib. Belə ki, Dövlət Proqramının "Ətraf mühitin mühafizəsinin gücləndirilməsi" adlı prioritetində Naxçıvanda "yaşıl enerji" potensialının yaradılması, enerji səmərəliliyi və ekoloji təmiz texnologiyaların tətbiqi tədbirlərinin genişləndiriləcəyi, ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin (minik avtomobilləri, avtobuslar və sair) dövriyyəsinin stimullaşdırılacağı vurğulanır.

Naxçıvanın müasir inkişafında əsas yol xəritəsi sayılan Dövlət Proqramında ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrindən (minik avtomobilləri, avtobuslar və s.) istifadənin artırılması əsas hədəflərdəndir. Məhz bu baxımdan Prezident cənab İlham Əliyevin martın 4-də imzaladığı "Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncam geniş imkanlar açır. Sərəncama əsasən Naxçıvan şəhərinin ictimai nəqliyyat sistemində sərnişin daşımalarının yalnız elektrik mühərrikli avtobuslarla təşkili məqsədilə 60 ədəd elektrik mühərrikli avtobusun alınması və enerjidoldurma cihazlarının quraşdırılması nəzərdə tutulur. Eyni zamanda həmin avtobuslara xidmət səviyyəsinin yüksəldilməsi üçün depo (qaraj) infrastrukturunun təkmilləşdirilməsi də əsas məqsədlərdəndir. Bunun üçün "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinə 33 milyon 449 min manat vəsait ayrılıb.

Diqqətə çəkmək yerinə düşər ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasında da iqlim dəyişikliyi ilə bağlı mübarizədə ətraf mühitin qorunması əsas məqsədlərdəndir və 1995-ci ildə bu konvensiyanı təsdiqləyən ölkəmiz də ötən illərdə üzərinə düşən vəzifələri uğurla icra edib. Bu mənada, təsadüfi deyildir ki, COP29 kimi nəhəng tədbir ötən il Azərbaycanda keçirildi. Konfransda "yaşıl enerji"yə keçid, havanın çirkləndirilməsinə qarşı mübarizə, ətraf mühitə atılan tullantıların azaldılması, atmosferə buraxılan karbon emissiyalarının sıfıra endirilməsi əsas müzakirə mövzularından oldu və respublikamızın ortaya qoyduğu güclü siyasi iradə nəticəsində mühüm tarixi qərarlar qəbul edildi. Həmçinin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də yer alan "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanan 5-ci prioritetin icrasının təmini, istehsalatda "yaşıl texnologiya"ların tətbiqi və bu istiqamətdə atılan addımlar da COP-a töhfə, "yaşıl iqtisadiyyat"a keçiddə mühüm uğur göstəriciləri kimi vurğu gərəkdirir. Ölkə başçısı cari il yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə də müvafiq sahəyə dair sözügedən məsələyə toxundu, havanı çirkləndirən nəqliyyat vasitələrinin elektrik mühərrikli avtobuslarla əvəz olunmasını qarşıya mühüm vəzifə kimi qoydu. Sitat: ***"Ölkəyə yüzlərlə yeni sərnişin avtobusu gətirilib və bu ildən başlayaraq ilin sonunda elektrobusların yığımı, ondan sonra lokalizasiyanın artımı işləri də başlanacaq. Şəhərimizə artıq 161 yeni elektrik avtobusu gətirilib və yaxın gələcəkdə Bakı sakinləri bunun xeyrini görəcəklər. Çünki havanı ən çox çirkləndirən nəqliyyat vasitələridir, xüsusilə böyük nəqliyyat vasitələridir. Ona görə biz, əlbəttə ki, bu işdə də insanların narahatlığını nəzərə alırıq".***

Əminliklə demək olar ki, ölkə başçısının martın 4-də imzaladığı "Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncam muxtar respublikamızda nəqliyyat infrastrukturunun dövrün tələblərinə cavab olacaq şəkildə müasirləşdirilməsinə güclü təkan olacaq. Bununla iqlim dəyişikliyinə qarşı mübarizə və ekoloji dayanıqlılığın artırılması üçün ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və istifadəsinin genişləndirilməsi təmin olunacaq. Şəhərdaxili bütün marşrut xətləri üzrə elektrik mühərrikli avtobusların işləməsi ölkəmizdə ümumbəşəri ideyalar üzrə reallaşdırılan "yaşıl enerji" konsepsiyasına, iqlim diplomatiyasına da mühüm töhfə verəcək.

**Nail ƏSGƏROV**

## Elektrikli avtobuslar Naxçıvanda ekoloji mühitin yaxşılaşdırılmasına töhfə verəcək

"Naxçıvanda ictimai nəqliyyat infrastrukturunun yaxşılaşdırılması üçün nəzərdə tutulan 60 ədəd elektrobusun Çinin böyük bir şirkəti ilə əldə olunmuş razılığa əsasən yığma üsulu ilə Azərbaycanda istehsal olunacağı nəzərdə tutulur".

Bu sözləri "Şərq qapısı"na müsahibəsində hüquqşünas, ekspert Ərşad Hüseynov deyib.

Onun sözlərinə görə, Naxçıvan şəhərində ictimai nəqliyyatın yenidən təşkili ilə bağlı ölkə başçısının martın 4-də imzaladığı Sərəncamın bir neçə istiqamətdə çox böyük əhəmiyyəti vardır: "Sərəncam preambulasında da qeyd olunduğu kimi, əsas hədəflərdən biri ölkəmizin iqlim dəyişikliyinə qarşı mübarizədə ekoloji dayanıqlı inkişafın və ətraf mühitin dayanıqlı mühafizəsinin daha da yaxşılaşdırılması istiqamətində atılan bir addımdır. Ətraf mühitə nəqliyyatın da olduqca ciddi zərərli təsiri var ki, bu zərərli təsiri azaltmaq üçün ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə genişləndirilməlidir. Bunun üçün daxili yanma mühərrikli nəqliyyat vasitələrinin, xüsusən də daha çox yanacaq sərf edən avtobusların elektrik mühərrikli elektrobuslarla əvəz olunması şəhərdə ekoloji mühitin yaxşılaşdırılmasına və dayanıqlı mühafizəsinə töhfə verəcək. Bu Sərəncamın və onun icrasının əsas nəticələri Naxçıvan şəhərinin ictimai nəqliyyatının təkmilləşdirilməsi olacaq".



"Ümumiyyətlə, ictimai nəqliyyat insanların həyat tərzinə və həyat keyfiyyətinə çox ciddi təsir edən amildir. Bunun üçün də ictimai nəqliyyat daha dayanıqlı sosial iqtisadi inkişaf üçün vacib zəmindir. Çünki ictimai nəqliyyat əhalinin mobilliyinin təmin olunmasında prioritet olmalıdır. Artıq dünyada belə bir tendensiya mövcuddur və bizdə bu tendensiyaya qoşulmalıyıq. Naxçıvan şəhərində ictimai nəqliyyat infrastrukturunun müasirləşdirilməsi bu istiqamətdə artıq yeni bir addımdır. Bu həm də onu əlamətidir ki, ilk dəfə olaraq paytaxt Bakıdan başqa digər bir şəhərin ictimai nəqliyyatına çox yüksək səviyyədə diqqət göstərilir, dövlət büdcəsindən birbaşa investisiya qoyulur. Burada ciddi bir məbləğdən, 33 milyon 449 min manat vəsaitdən söhbət gedir. Ümumiyyətlə, bu Sərəncam Naxçıvanda ictimai nəqliyyatı yaxşılaşdırmaqla bərabər, həm də Azərbaycanda elektrobusların yığım yolu ilə olsa da, istehsalını stimullaşdıracaq. Bu dövlət sifarişidir və həmin sahənin inkişafı öz dəstəyini alacaq. Bu addım həm də gələcəkdə digər böyük şəhərlərimizdə də ictimai nəqliyyatın yaxşılaşdırılması sahəsində addımların atılması üçün mühüm faktordur", – deyə Ərşad Hüseynov vurğulayıb.

**Cavanşir BAĞIRLI**




# Naxçıvanın parlaq gələcəyi:
## *Zəngəzur dəhlizi ümidləri və strateji addımlar*

5 mart 2025-ci ildə iki qardaş ölkə – Türkiyə ilə Azərbaycanın, tarixinə sevinc və qürur dolu bir səhifə yazıldı. Həmin gün Ankarada dövlət başçılarının qatıldığı videobağlantı vasitəsilə İğdır-Naxçıvan qaz kəmərinin açılış mərasimi keçirildi. Və beləcə, bir zamanlar arzu, xəyal olan layihə artıq 5 mart tarixdə reallığa çevrildi. İllərin uğurlu və qətiyyətli siyasətinin nəticəsində Naxçıvanın etibarlı enerji təhlükəsizliyi təmin edildi. İğdır-Naxçıvan qaz kəməri, sadəcə, bir infrastruktur layihəsi deyil, iki ölkə arasında keçmişdən bu günə və bu gündən də gələcəyə körpü salan qardaşlıq bağına inamın qürurverici nümunəsi oldu. Başqa sözlə, bu qaz kəməri ***"Bir millət, iki dövlət"*** prinsipinə uyğun olaraq iki qardaş ölkə arasındakı bağları daha da möhkəmləndirdi.

Beləliklə, tarixən "Türkün qapısı" adlandırılan Naxçıvana artıq Türkiyədən yeni bir qapı açıldı. Hər iki ölkə başçısının videobağlantı ilə iştirak etdiyi açılış mərasimi ölkələrarası münasibətlərin dərinləşməsinə xidmət etməklə yanaşı, muxtar respublika sakinləri üçün də unudulmaz anlarla yadda qaldı. Çünki sözügedən qaz kəməri Naxçıvan əhalisinin rifahı və muxtar respublikanın iqtisadi dayanıqlılığının gücləndirilməsi istiqamətində həyata keçirilmiş önəmli bir layihədir. Bu bir daha göstərdi ki, müstəqil Azərbaycan Respublikasının ayrılmaz bir hissəsi olan Naxçıvana cənab İlham Əliyevin göstərdiyi diqqət və qayğı böyükdür, sonsuzdur...

Regionda enerji təhlükəsizliyinin gücləndirilməsində Bakı-Tbilisi-Ərzurum, TANAP və TAP kimi strateji boru kəmərləri ilə yanaşı, yeni açılan İğdır-Naxçıvan qaz kəmərinin özünəməxsus və böyük əhəmiyyəti vardır. Məhz bu boru kəmərləri sayəsində Azərbaycan beynəlxalq arenada enerji sektoru üzrə önəmli bir mövqeyə malikdir. Bu mənada, İğdır-Naxçıvan qaz kəməri iki qardaş dövlət arasındakı əlaqələrin yalnız diplomatik və hərbi sahədə deyil, eyni zamanda da iqtisadi əlaqələr üzərində qurulduğunu göstərir. Bütün bu birgə layihələr və dostluq münasibətləri ilə yanaşı, yaxın zamanda səbirsizliklə açılmasını gözlədiyimiz Zəngəzur dəhlizi Naxçıvanın timsalında Azərbaycan Respublikasının bölgədə regional güc olması istiqamətində atılan addımlardır.

Qaz kəməri uzun illərdir, blokadanın yaratdığı çətinliklərdən əziyyət çəkən Naxçıvan üçün mühüm perspektivlər açır. Açılış mərasimində Prezident cənab İlham Əliyev Naxçıvanın qədim Azərbaycan torpağı olduğunu və bir əsrdən çoxdur ki, respublikanın əsas hissəsindən ayrı düşərək blokada şəraitində olduğunu da vurğuladı: ***"Onların planları Naxçıvanı da işğal etmək idi. Ancaq o zaman mənim atam Heydər Əliyev Naxçıvanın rəhbəri kimi buna imkan vermədi və Naxçıvanı qorumaq üçün bütün naxçıvanlılar səfərbər oldular, öz doğma torpaqlarını qorudular və işğalçını yerində oturtdular".***

Ümumilikdə, onu xüsusilə vurğulamaq lazımdır ki, İğdır-Naxçıvan qaz kəmərinin istifadəyə verilməsi tarixən mövcud olan dostluq, qardaşlıq əlaqələri üzərində inkişaf edən, 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik səviyyəsinə yüksələn əlaqələrdə yeni bir mərhələnin əsasını qoydu. Azərbaycan-Türkiyə əməkdaşlığı münasibətlərinin daha da möhkəmləndirilməsinə xidmət edən bu addım bir daha Naxçıvanın türk dövlətləri ilə inteqrasiyanı sürətləndirməsi, birliyin gücləndirilməsi və ortaq dəyərlərin qorunub saxlanılmasında mühüm rol oynadığını, eyni zamanda onun Türk dünyası üçün əvəzedilməz bir məkan olduğunu göstərir. Bu da məlumdur ki, Naxçıvanın Türk dünyasındakı rolu həm coğrafi, həm tarixi, həm də mədəni aspektlər baxımından mühüm əhəmiyyət kəsb edir. Əminliklə demək olar ki, yaxın gələcəkdə Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın Türkiyə-Azərbaycan dostluğu və Türk dünyası üçün kəsb etdiyi praktiki əhəmiyyəti daha da artacaq və bu bölgə iqtisadi layihələr, nəqliyyat yolları və enerji dəhlizləri ilə türk dövlətlərinin daha sıx əməkdaşlıq etməsinə imkan yaradacaq. Naxçıvanla bağlı həyata keçirilən məqsədyönlü tədbirlər və reallaşdırılmağa hazırlanan layihələr muxtar respublika üçün parlaq bir gələcəyin xəbərçisidir... Yaxın vaxtlarda Zəngəzur dəhlizinin açılacağı da şübhəsizdir.



**Cavanşir BAĞIRLI**

**Baş redaktordan**
**Sara ƏZİMOVA**



## 7 mart 2025 – Zəngəzur dəhlizi: həsrətin son sərhədindən baxış

Bəzən bir yol, sadəcə, torpaq və daşlardan ibarət olmur. Bəzən isə bir yol həsrətin, gözlənilən qovuşmanın, ayrılığın sərhədidir. Biz bu sərhədi çəkdik – fotoaparatımızın yaddaşına, qəlbimizin dərinliklərinə. Bu gün burada dayanaraq sanki gələcəyin qapısına baxırdıq.

Bu torpaqlar illərdir, sükut içindədir. Amma bu sükutun altında minlərlə insanın göz yaşları, duaları, ümidləri yatır. Hər qarışında bizi çağıran bir tarix, keçmişin və gələcəyin səsi var. Sabah burada maşınların səsi yüksələcək, bir ana isə övladına: "Biz bu yolu illərlə gözlədik... Nəhayət, biz də buradan keçirik, həsrət bitdi…" – deyəcək. O gün gələcək, bu sərhədlər aşılacaq, yollar birləşəcək!

Biz bu günü sənədləşdirdik ki, sabah ona qovuşduğumuzda bu şəkillərə baxıb deyək: "Bax biz buradaydıq, bu yolu çəkdik ki, bir gün onun üzərindən addımlayaq!"

Bu torpaq bizimdir, bu yol bizimdir. Bu həsrət də bizimdir, qovuşacağımız gün də!

Zəngəzur dəhlizi təkcə bir yol, bir kommunikasiya xətti deyil. Bu, tarixi ədalətin bərpası, milli iradəmizin təcəssümü, Azərbaycan xalqının haqq mübarizəsinin davamıdır. Bu dəhliz açıldıqda təkcə Naxçıvan blokadadan çıxmayacaq, təkcə Azərbaycanın quru əlaqəsi bərpa olunmayacaq – bütövlükdə Türk dünyası birləşəcək, yeni tarixi dövr başlayacaq.

Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, bu yol bizim haqqımızdır, bu, tarixi bir zərurətdir və heç kim bu prosesi dayandıra bilməz. 44 günlük Vətən müharibəsində Azərbaycan xalqı göstərdi ki, o öz haqqı uğrunda sona qədər mübarizə aparmağa hazırdır. Bu gün də Zəngəzur dəhlizi istiqamətində eyni əzmkarlıq və qətiyyət nümayiş etdirilir.

Biz bilirik ki, bu yol açılacaq. Çünki biz qalib xalqıq və bizim liderimiz Ali Baş Komandandır. Prezident İlham Əliyevin sözləri ilə desək: ***"Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır!"***

Biz Ali Baş Komandanımızın qətiyyətinə inanırıq. Biz bilirik ki, Azərbaycanın haqq işi yarımçıq qalmayacaq.

Bu tarixi anları fotolarda əbədiləşdirib, 104 yaşlı qəzetimiz "Şərq qapısı"nda yayımlamaq arzusu ilə…

## Daha bir arzu gerçək oldu




Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidenti cənab İlham Əliyev ilə birlikdə təməlini qoyduğu İğdır-Naxçıvan qaz kəmərinin açılışını həyata keçirdik. Bu sözləri ***Türkiyə Böyük Millət Məclisinin İğdırdan olan deputatı Cantürk Alagöz*** "Şərq qapısı" qəzetinə xüsusi müsahibəsində bildirib.

Deputat bildirib ki, enerji və təbii sərvətlər naziri cənab Alparslan Bayraktar və Azərbaycan Respublikasının energetika naziri cənab Pərviz Şahbazovun iştirakı ilə keçirilən mərasimdə illik 730 milyon kubmetr qazötürmə gücünə malik boru kəməri istismara verildi.

Bu kəmər Türkiyənin Türk dünyasına açılan qapısı olan Naxçıvanın qaz ehtiyacını tam şəkildə qarşılayacaq. "Türk qapısı" adlandırılan Naxçıvanın enerji təhlükəsizliyi Türkiyə ilə təmin olunacaq. Bu layihə strateji baxımdan mühüm əhəmiyyətə malikdir.

Deputat əlavə edib ki, liderlərimizin təşəbbüsü, səyi və dəstəyi sayəsində bu layihə xəyal olmaqdan çıxıb gerçəyə çevrildi. Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti cənab İlham Əliyevə minnətdarlığımızı bildiririk.

Türk dünyasına xeyirli olsun!

# Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2024-cü il üzrə məruzəsinin xülasəsi

Dövlət və vətəndaş münasibətlərində yeni başlanğıc hesab edilən Ombudsman muxtar respublikada da səmərəli hüquq müdafiə mexanizmi kimi formalaşaraq fəaliyyətini insan hüquqlarının daha etibarlı müdafiəsi, pozulmuş hüquqların bərpası və pozulmasının qarşısının alınması, daxil olan müraciətlərin araşdırılması, preventiv və müstəqil monitorinq mexanizm funksiyalarının icrası, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrin informasiya sahibləri tərəfindən yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsi, beynəlxalq təcrübə mübadiləsi, hüquqi maarifləndirmə, bu sahədə dövlət orqanları və bələdiyyələr, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davamlı inkişaf etdirilməsi istiqamətində quraraq uğurla davam etdirir.

Öz fəaliyyətini müstəqillik, aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət və qərəzsizlik prinsipləri əsasında quran Ombudsman aparatında 2024-cü il ərzində 490 vətəndaş qəbulu həyata keçirilmiş, icraatda 241 müraciət olmuşdur.

Bu müraciətlər Ombudsmana yazılı (o cümlədən elektron) qaydada göndərilmiş,



həmçinin aparatda vətəndaş qəbulu, Ombudsmanın muxtar respublikanın şəhər və rayonlarında əhali qrupları ilə görüşləri, cəzaçəkmə müəssisəsinə, istintaq təcridxanasına, müvəqqəti saxlama yerinə, hərbi hissələrə, sosial xidmət mərkəzlərinə, internat məktəbinə, səhiyyə, təhsil müəssisələrinə həyata keçirilmiş başçəkmələr və monitorinqlər zamanı təqdim edilmişdir.

Hesabat dövründə Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə Ombudsman muxtar respublikanın şəhər və rayonlarında sakinlərlə görüşmüş, ictimai dinləmə keçirilmiş, maarifləndirici söhbətlər və monitorinqlər aparılmış, müraciət edənlərə hüquqları izah edilmiş, icraata qəbul olunmuş müraciətlər qanunvericiliyin tələbləri çərçivəsində araşdırılmışdır.

Ümumilikdə, daxil olmuş müraciətlərin hüquqi kateqoriyasına görə ən çoxunu, yəni 22 faizini hüquq və azadlıqların inzibati və məhkəmə təminatı, 15,4 faizini sosial təminat, 12 faizini əmək, 8,7 faizi isə mülkiyyət hüququnun təmini və müdafiəsi ilə bağlı müraciətlər təşkil etmişdir. Digər müraciətlər isə təhsil, bərabərlik, müraciət etmək, informasiya əldə etmək, özbaşınalıqdan müdafiə və vicdanlı davranış, azad sahibkarlıq, sağlam ətraf mühitdə yaşamaq, şərəf və ləyaqətin müdafiəsi, sağlamlığın qorunması və sair hüquqlarla bağlı olmuşdur.

Qanunun tələblərinə müvafiq olaraq 43 müraciətə baxılmaqdan imtina edilmiş, 198 müraciət baxılmaq üçün icraata qəbul edilmiş, 84 müraciətdə (78 tam, 6 qismən) hüquq pozuntusu aradan qaldırılaraq ərizəçilərin hüquqları təmin edilmiş, 58 müraciətə baxılması zamanı hüquq pozuntusu aşkar edilməmiş, 26 müraciət üzrə hüquqi məsləhətlər verilmiş, 14 müraciət nəzarətdə saxlanılmış, 1 müraciətdə cinayət əlamətləri aşkar edildiyindən Naxçıvan Muxtar Respublikası Prokurorluğuna, 2 müraciət isə aidiyyəti üzrə göndərilmiş, 13 müraciətin icraatı davam etdiyindən növbəti ilə qalıq qalmışdır.

Müraciətlərin araşdırılması və təhlili təcrübəsi, habelə dövlət qurumları ilə əməkdaşlıq əlaqələri bir sıra problemlərin operativ həllində və baş verə biləcək pozuntu hallarının qarşısının alınmasında əhəmiyyətli rol oynamışdır. Nəticədə, ərizəçilərin hüquqlarının təmin edilmə göstəricisi ötən illə müqayisədə 12,7 faiz artmışdır.

Hesabat dövründə Ombudsman və onun tapşırığına əsasən Preventiv qrupun üzvləri tərəfindən şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə, o cümlədən İstintaq Təcridxanasına, Müvəqqəti Saxlama Yerinə, Qanunsuz Miqrantların Saxlanma Mərkəzinə, şəhər və rayon polis idarə, şöbə və bölmələrinin saxlama yerlərinə müntəzəm keçirilmiş başçəkmələr zamanı azadlıq hüququnun məhdudlaşdırılması ilə bağlı məsələlər araşdırılmış, saxlamanın əsasları, qanuniliyi, müddət və şərtləri, saxlanılan şəxslərin hüquqlarının təmini ilə bağlı qanunvericiliyin tələblərinə əməl olunub-olunmaması məsələləri aydınlaşdırılmışdır.

ardı 5-ci səhifədə

Daxili İşlər Nazirliyinin tabeliyində olan müəssisələrə 31, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələrinə 16, Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinə 4, Təhsil Nazirliyinin müəssisəsinə 2, Səhiyyə Nazirliyinin müəssisəsinə 5, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisəsinə 2 və Naxçıvan Regional Miqrasiya Baş İdarəsinin müəssisəsinə 2 başçəkmə həyata keçirilmişdir.

Həmçinin Preventiv mexanizmin rəhbəri kimi Ombudsman Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin Qadınlar bölməsinə, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının tabeliyində olan sərhəd zastavasına, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan "Çətin həyat şəraitində olan şəxslər üçün Sosial Reabilitasiya Müəssisəsi"nə başçəkmə həyata keçirmiş, orada olan şəxslərlə fərdi və konfidensial söhbət aparmış, müəssisə rəhbərliyinə və əməkdaşlarına hüquqi məsləhətlər və tövsiyələr vermişdir.

Başçəkmələr zamanı 1047 şəxslə ümumi və 55 şəxslə konfidensial görüş keçirilmişdir. Görüşlər zamanı həmin şəxslərin hüquqlarının təmini vəziyyəti öyrənilmiş, müraciətləri dinlənilərək hüquqları izah edilmiş, bir çox məsələlər yerində həll edilmiş, digər hallarla bağlı aidiyyəti dövlət qurumlarına müraciətlər edilmişdir.

Başçəkmələr zamanı məhkumların ləyaqətlərinin qorunması, işçi heyətin onlarla humanist və müsbət rəftar etmə öhdəliyinə əməl etmə məsələlərinə xüsusi diqqət yetirilmiş, məhkumların saxlanılması üçün bütün mümkün sahələrdən istifadə, gigiyena və sanitariya qurğuları, məhkumların sağlamlığının qorunması və açıq havada olmaq imkanı monitorinq olunmuşdur.

2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin İstintaq Təcridxanasında mövcud şəraitlə bağlı sıxlıq problemi yenə də aşkar olunsa da, ilin ikinci yarısında bu problemin aradan qaldırıldığı müəyyən olunmuşdur.

Ötən ildə həyata keçirilmiş başçəkmələrdə verilmiş təklif və tövsiyələrə uyğun olaraq penitensiar müəssisələrində əsaslı təmir işləri aparılaraq sanitariya və gigiyena qaydalarına uyğun zəruri şərait yaradılmış, elektrik sistemlərinə dəyişiklik edilərək işıqlandırma daha da yaxşılaşdırılmış, mərkəzləşdirilmiş ticarət şəbəkəsi vasitəsilə satışına icazə verilən qida məhsullarına və digər mallara əlçatanlıq təmin olunmuşdur.

Qeyd olunanlarla yanaşı, 2024-cü il ərzində penitensiar müəssisələrə həyata keçirilmiş başçəkmələr zamanı bir sıra nöqsanlar aşkar olunmuşdur.

Nöqsanlarla bağlı verilmiş təklif və tövsiyələrdən sonra məhkumların ədəbiyyat əldə etməsi hüququ təmin edilərək kitabxanalar zənginləşdirilmiş, yazı ləvazimatlarına əlçatanlıq təmin edilmiş, tibb-sanitar hissədə təmir-bərpa işləri görülmüş, qadın məhkumların videogörüş keçirmək hüququ təmin edilmiş, elektrikli su qızdırıcılardan istifadə qadağan olunmuş, məhkumların maddi-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə onlar geyim, ayaqqabı, yumşaq invertarlar və gigiyenik vasitələrlə təmin olunmuşlar.

2024-cü il ərzində Ombudsmanın Preventiv qrupu tərəfindən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin tabeliyində olan Müvəqqəti Saxlama Yerinə, polis idarə, şöbə və bölmələrinə həyata keçirilmiş başçəkmələr zamanı Müvəqqəti Saxlama Yerinin kameralarında sanitariya-gigiyena qaydalarına əməl olunmamasının cəzanın ləyaqətli şəkildə çəkilməsinə maneə olduğu, istifadəyə yararsız dərman preparatlarının mövcudluğu, yumşaq invertarların istifadəyə yararsız və natəmiz olduğu, bəzi müəssisələrin müvəqqəti saxlama yerlərində şəraitin uzunmüddətli saxlanılma (24 saatdan artıq) üçün əlverişli olmadığı, həmçinin bəzi polis şöbələrində "Görüş otağı"nın olmadığı, ümumilikdə, MSY-də saxlanılan şəxslərin maddi-məişət və tibbi-sanitariya təminatının qənaətbəxş olmadığı müşahidə edilmiş, saxlanma şəraitinin yaxşılaşdırılması, müvafiq müəssisələrdə görüş otaqlarının yaradılması və zəruri avadanlıqlarla təchiz edilməsi, qanunvericiliyin tələblərinə əməl olunmaqla mövcud nöqsanların aradan qaldırılması üçün yuxarı dövlət orqanına təklif və tövsiyələr verilmişdir.

Verilmiş tövsiyələrdən sonra nöqsanlar aradan qaldırılmış, aidiyyəti qurum tərəfindən kompleks təmir işlərinin görüləcəyi və çatışmazlıqların aradan qaldırılacağı bildirilmişdir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan Ordubad şəhər tam orta internat məktəbinə həyata keçirilmiş başçəkmələr zamanı məktəbdə gecələyən təhsilalanların saxlanma şəraiti, qida təminatı, tibbi və psixoloji xidmətin təşkili, maddi-məişət şəraiti ilə bağlı qanunvericiliyin tələblərinə uyğun olmayan bir sıra nöqsan və çatışmazlıqların olduğu müəyyən edilmişdir.

Aşkar olunmuş nöqsan və çatışmazlıqlarla bağlı aidiyyəti quruma verilmiş tövsiyələrdən sonra vakant olan həkim vəzifəsinə təyinat aparılaraq məktəbdə gecələyən təhsilalanların tibbi xidmətlərə əlçatanlığı təmin edilmiş, sanitar-gigiyenik sahədə mövcud olan problemlər aradan qaldırılmış, şagirdlər üçün yeni geyim və ayaqqabılar, o cümlədən yumşaq inventarlar alınmışdır.

Həmçinin qidanın keyfiyyətinə nəzarətin artırılması və qida normalarının müasir standartlara uyğunlaşdırılması məqsədilə Ombudsman tərəfindən Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinə müraciət olunmuş və müəssisədə qidanın minimum keyfiyyətinə nəzarət gücləndirilmişdir.

Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan Psixi Xəstəliklər Dispanserinə həyata keçirilmiş başçəkmələr zamanı pasiyentlərin hüquqlarının təminatı vəziyyəti, saxlanma şəraiti və rəftar məsələləri araşdırılmış, maddi-məişət şəraitinin və tibbi-sanitariya təminatının qanunvericiliyin tələblərinə uyğun olmadığı, sanitar-gigiyenik qaydalara riayət olunmadığı, elektrik lampalarının bir çoxunun işləmədiyi, hamamda və sanitar qovşaqlarda su kranlarının sıradan çıxdığı, yumşaq inventarların istifadəyə yararsız olduğu aşkar olunmuşdur.

Qeyd edilən hüquq pozuntularının aradan qaldırılması üçün Səhiyyə Nazirliyinə təklif və tövsiyələr verilsə də, mövcud nöqsan və çatışmazlıqlar aradan qaldırılmamışdır.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan "Çətin həyat şəraitində olan şəxslər üçün Sosial Reabilitasiya Müəssisəsi"nə həyata keçirilmiş başçəkmələr zamanı ahılların və digər sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının müdafiəsi, qidalanma, içməli su, habelə isti və soyuq su ilə təminat, asudə vaxtın təşkili, rəftar, sənədləşmə məsələləri araşdırılaraq şəraitin qənaətbəxş olduğu müşahidə edilmiş, bu kateqoriyadan olan şəxslərə tibbi-psixoloji və profilaktik tədbirlərin daha yüksək səviyyədə həyata keçirilməsi ilə bağlı müəssisənin rəhbərliyinə təklif və tövsiyələr verilmişdir.

Ombudsmanın preventiv mexanizm funksiyasının icrası məqsədilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Naxçıvan Regional Miqrasiya Baş İdarəsinin tabeliyində olan Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə həyata keçirilmiş başçəkmələr zamanı mərkəzdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin saxlama şəraiti, saxlanılma rejimi, onların hüquqlarının təmini vəziyyəti öyrənilmiş, qeydiyyat kitablarına baxış keçirilmiş, maddi-məişət şəraitinin qənaətbəxş olduğu müşahidə olunmuşdur.

2024-cü ildə hüquq və azadlıqların məhkəmə təminatı ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə vəsatətlərə baxılmaması, hakimlərin hərəkətlərindən (və ya hərəkətsizliyindən) narazılıq, məhkəmə qərarları ilə bağlı dövlət rüsumunun geri qaytarılmaması, məhkəmə baxışı zamanı prosessual hüquq normalarının pozulması, işə baxılma müddətlərinin süni şəkildə uzadılması, məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılmasında köməklik göstərilməsi, məhkəmə aktlarından narazılıq, məhkəmə qərarlarının icraya yönəldilməməsi və ya icra olunmaması, şikayətlərə kassasiya və əlavə kassasiya qaydasında baxılması üçün vəkillə təmin olunmaqda köməklik göstərilməsi və digər hallar öz əksini tapmışdır.

Müraciətlərin təhlili təcrübəsi göstərir ki, icra tədbirlərinin həyata keçirilməsində mövcud çətinliklər bəzən borclunun olduğu yerin müəyyən edilməməsi ilə bağlı olur. Bu zaman yerli icra qurumu tərəfindən borclunun axtarılması barədə qərar qəbul edilərək polis orqanlarına göndərilsə də, bəzən axtarış tədbirləri həyata keçirilmir və ya bu tədbirlər gecikdirilir. Həmin şikayətlərlə əlaqədar Ombudsman tərəfindən aidiyyəti üzrə ünvanlanmış sorğular əsasında borclunun yeri müəyyən olunaraq yerli icra qurumuna təhvil verilmiş, icra tədbirləri davam etdirilmiş və bir sıra hallarda tələb təmin olunmuşdur.

Bu kimi halların qarşısının alınması məqsədilə aidiyyəti qurumlar arasında funksional əlaqələndirmə lazımi səviyyədə təşkil edilməli, məhkəmə qərarlarının icrası mexanizmləri təkmilləşdirilməli, zəruri təsir vasitələri effektiv olmalı, məhkəmə qərarlarının icrasına nəzarət gücləndirilməlidir.

"Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamına uyğun olaraq cinayətlərin dekriminallaşdırılması, habelə azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəzetmə, cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə və şərti məhkumetmə institutlarının daha geniş tətbiq edilməsi, eləcə də digər istiqamətlər üzrə tədbirlər 2024-cü ildə də davam etdirilmişdir.

2024-cü il ərzində cəzanın çəkilməsinin təxirə salınması və ya onun ləğv edilməsi, xəstəliyə görə cəzanı çəkməkdən azad edilməsi, ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad edilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi ilə bağlı Ombudsmanın ünvanına müraciətlər daxil olmuş, müraciətlərə baxılarkən qanunvericiliyin tələblərinə, habelə humanizm prinsipinə əsaslanaraq məhkumlar barədə təqdimat verilməsi ilə bağlı aidiyyəti quruma tövsiyələr edilmişdir.

Ombudsman başçəkmələr zamanı saxlanılan şəxslərin həmin müəssisələrdə hüquq və azadlıqlarının təmini vəziyyəti ilə yanaşı, müdafiəçisi ilə görüşmək hüququnun təmin olunmasına şərait yaradılması məsələləri araşdırılmış və müəssisələrin rəhbərlərinə tutulan, həbs edilən və ya məhkum edilən şəxslərə hüquqi yardımın göstərilməsi üçün vəkil ilə ləyaqətli şəraitdə təklikdə görüşmək və konfidensial ünsiyyətin saxlanılması üçün lazımi şəraitin yaradılması tövsiyə olunmuşdur.

İnformasiya sahibi olan dövlət orqanları və bələdiyyələr, vəzifəli şəxslər tərəfindən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması halları ilə bağlı Ombudsmanın ünvanına 1 şikayət daxil olmuş, şikayətdə əks olunmuş halların araşdırılması zamanı informasiya sahibi tərəfindən müvafiq Qanunun tələblərinə riayət edilib-edilməməsi aydınlaşdırılmış və ərizəçinin informasiya sahibinin informasiya əldə etmək üçün yaratdığı imkanlardan kifayət qədər səmərəli istifadə etmədiyi müəyyən olunmuşdur.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 371-374, 381.2, 381.3 və 554-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında protokol tərtib olunmamış, informasiya sahibləri barəsində inzibati tənbeh tədbirlərinin tətbiqinə dair qərar qəbul edilməmişdir.

Müvafiq dövlət orqanlarına verilmiş tövsiyələrdən sonra Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi Publik Hüquqi Şəxsi, Dövlət Su Ehtiyatları Agentliyi və İqtisadiyyat Nazirliyi tərəfindən rəsmi internet saytlarda "sorğu butonu" yaradılmış, həmçinin Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Turizm Departamenti və Dövlət Arxiv İdarəsi tərəfindən informasiya məsələləri üzrə vəzifəli şəxs təyin edilmiş, eləcə də Naxçıvan Muxtar Respublikası Turizm Departamenti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti və Culfa Rayon İcra Hakimiyyəti tərəfindən "sorğu butonu" bölməsinin yaradılması üçün Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə müraciət ünvanlandığı müəyyən olunmuşdur.

Bununla yanaşı, hələ də bəzi qurumların yaratdıqları informasiya ehtiyatları qanunvericiliyin tələblərinə cavab vermir.

İnformasiya əldə etmək hüququnun təbliği, bu hüquqla bağlı məlumatlılıq səviyyəsinin artırılması məqsədilə Culfa, Ordubad və Kəngərli rayon icra hakimiyyətlərində maarifləndirmə tədbirləri həyata keçirilmiş tədbirlərdə 172 nəfər iştirak etmişdir.

Müraciətlərin analitik təhlili zamanı müəyyən olunan problemlərdən biri də aidiyyəti dövlət orqanlarına vətəndaşların etdiyi müraciətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada və vaxtında baxılmaması, həmçinin yazılı cavab verilməməsidir.

Qanunvericiliyin tələblərinə uyğun olaraq vətəndaşların müraciətlərinə qanunla müəyyən olunmuş qaydada və müddətlərdə baxılmalı, müraciətə baxılmasının nəticəsi haqqında vətəndaşlara gecikdirilmədən yazılı cavab verilməlidir.

Növbədənkənar prezident seçkilərinə və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərə, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərə hazırlıq dövründə Ombudsmanın təşəbbüsü və təşkilatçılığı ilə dairə və məntəqə seçki komissiyalarının üzvlərinin, aidiyyəti dövlət orqanlarının və vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə muxtar respublikanın şəhər və rayonlarında maarifləndirmə tədbirləri keçirilmişdir.

Ombudsman və aparatın əməkdaşları növbədənkənar prezident seçkilərində 6 seçki dairəsi üzrə 210 seçki məntəqəsində, həmçinin Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 6 seçki dairəsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə isə 45 seçki dairəsi üzrə 249 seçki məntəqəsində, o cümlədən hərbi hissələrdə və cəzaçəkmə müəssisələrində müstəqil olaraq özlərinin təşəbbüsləri ilə seçkiləri müşahidə etmişlər.

Ombudsman muxtar respublikanın müxtəlif bölgələrində səsvermə prosesində müşahidəçi qismində iştirak edən, eyni zamanda seçki hüququnun təmin edilməsi vəziyyətinin monitorinqini həyata keçirən aparat əməkdaşlarından mütəmadi olaraq məlumatlar almış, seçki prosesini və seçicilərin hüquqlarının təmini ilə bağlı vəziyyəti diqqətdə saxlamışdır.

Monitorinqlər göstərmişdir ki, vətəndaşların seçki hüquqları təmin olunmuş, əlilliyi olan, yaşlı və müxtəlif xəstəliklərdən əziyyət çəkən şəxslərin seçki hüququnun həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərindən irəli gələn şərait yaradılmışdır.

Əmək hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə əməkhaqqının ödənilməməsi və ya ödənilməsinin gecikdirilməsi, istehsalat xəsarətinə görə ödəncin, sığorta haqqının, habelə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müvafiq müavinətlərin, istifadə edilməmiş əmək məzuniyyətinə görə kompensasiyaların verilməməsi, son haqq-hesabın düzgün hesablanmaması və ya ödənilməməsi, əmək müqaviləsinin ləğv edilməsinin qarşısının alınmasına, əmək müqaviləsi müddətinin uzadılmasına, işlə təmin olunmasına köməklik göstərilməsi, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan əlilliyi olan şəxslərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların verilməməsi və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Sosial təminat hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olan müraciətlər pensiya təminatı hüququnun həyata keçirilməməsi, sosial müavinətlərin, o cümlədən ünvanlı dövlət sosial yardımının təyin olunmaması, sosial sığorta haqlarının fərdi şəxsi hesaba əlavə edilməməsi, özünüməşğulluq proqramına cəlb edilmə və əlilliyin müəyyən olunması ilə bağlı olmuş, müraciətlərin həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

Sağlamlığın qorunması hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə güzəştli dərman preparatları ilə təminatda mövcud problemlər, müalicə müəssisəsinə göndərişin verilməsindən imtina olunması, əlilliyin qiymətləndirilməsi ilə əlaqədar göndərişin rəsmiləşdirilməsi üçün tibb müəssisəsinə müraciətin nəticəsiz qalması və ya göndərişin müəyyən edilmiş tələblərə uyğun rəsmiləşdirilməməsi, tibbi reabilitasiyanın, habelə icbari tibbi sığortanın imkanlarından yetərincə istifadə etmək üçün zəruri şəraitin yaradılmaması və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Ombudsman müvafiq ərazidə əhalinin sağlamlığının qorunması hüququnun etibarlı müdafiəsinə və əhalinin keyfiyyətli tibbi xidmətlərlə təmin olunmasına şərait yaradılmasını, göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasını, eləcə də tibb müəssisələrinin zəruri avadanlıqlarla təmin edilməsini zəruri hesab edir.

*ardı 8-ci səhifədə*

# 8 MART Beynəlxalq Qadınlar Günüdür

## Şəhid anası

*(qısa hekayə)*

*Nə vaxt o küçədən keçsəm, bina evinin pəncərəsindən iki gözün baxdığını görürdüm. Ağsaçlı, gözəlgözlü, nurani bir qadın sanki kimisə gözləyirdi... Onun simasında dərin, tərifsiz bir kədər vardı. Ağrısı-acısı gözlərindən oxunurdu. Bunun adı çarəsizlik idi. Heç vaxt gəlməyəcəyini bilsə də, inadına hər gün daha da ümidlənən bir qadının çarəsizliyi...Yaşlı qadın sanki məni onunla tanış olmağa, söhbət etməyə, dərdinə şərik olmağa səsləyirdi. Mən də onu tanımaq istəyirdim. Yaxın qonşuları onun gülərüz, mehriban olduğunu, lakin övladını itirdikdən sonra özünə qapandığını deyirdilər..*

Evlərinə getdim. Qarşımda ortaboylu, qara şallı, qara paltarlı bir qadın dayanmışdı. Yaşı çox deyildi, bəlli ki, övlad acısı onu tez qocaltmışdı. Onunla evin ortasında qoyulmuş stolun yanına nizamla düzülmüş stullarda əyləşdik. Qeyri-ixtiyari ətrafa nəzər saldım. İkiotaqlı ev soyuq, kimsəsiz görünürdü... İnsan ən yaxınını itirəndə nəinki bədənini, yaşadığı evi illərlə heç nə ilə isitmək olmur. İnsanın yoxluğu çarəsizlikdir. Yoxluq qəlb qırıqlığıdır. Yoxluq incidicidir. Yoxluq özünü aldatmaqdır. Hər gün gələcəkmiş kimi gözləməkdir. Yoxluq həm də təmənnasız sevməkdir. Əsl sevgi elə budur, məncə. Biz itirəndə daha çox sevirik...

Bu düşüncələrdən məni çiynimə qoyulan bir əl ayıltdı. "Sənə çay gətirim", – dedi nəvazişli səs. "Əziyyət çəkməyin", – dedim. Bir qədər cəsarətlənib başımı qaldırıb qadının gözlərinin içinə baxdım. Pəncərədən baxan eyni gözlər idi, işığı sönmüş evi xatırladırdı. Qadın sanki bu anı gözləyirdi, kiminləsə söhbətləşmək, qəm yükünü az da olsa, yüngülləşdirmək istəyirdi. O, yavaşca əyləşdiyi stuldan qalxıb yaxınlıqdakı şkafın çəkməcəsindən götürdüyü bir neçə şəkillə geri qayıtdı. "Mənim oğlum", – deyib titrəyən əli ilə şəkildəki cavan oğlana tumar çəkdi, onu bağrına basdı. Mənim oğlum cəsur, qorxmaz idi, Vətənini canından çox sevirdi dedi. Şəkildəki uzunboylu, düzqamətli, şuxbədənli, qaraşın, hərbi paltarlı yaraşıqlı oğlan idi. Onun simasında təbəssüm, iti baxışlarından isə zəhmlilik oxunurdu. Hərbi geyiminin üzərinə müxtəlif döş nişanları vurulmuşdu.

– Oğlum savadlı, bacarıqlı idi. Hərbçi olmaq onun ən böyük arzusu idi. Hərbi məktəbi əla qiymətlərlə bitirmişdi, bu da onun diplomu. Qadın stolun üzərindəki qutunu açıb diplomları göstərdikdən sonra sözünə davam etdi: "Mən Vətən üçün oğul böyütdüm". Həmişə deyərdi ki, "Ana, səni ən yaxşı evlərdə yaşadacağam". Bişirdiyim yeməkləri çox sevərdi. 8 martda gül alıb gətirər, məni şirin sözlərlə əzizlər, "Anacan, sən bu güllərdən də gözəlsən", – deyərdi.

Ona qulaq asırdım. Bir ananın qəlbini necə ovuda bilərdim. O bizim qəhrəmanımızdır, onu Allah seçmişdi, doğulanda alnına yazılmışdı şəhid anası olmağı. "Allah yazana pozu yoxdur", – deyiblər. Dedim: – Şəhidlərimiz bizim qürur yerimiz, fəxrimizdirlər. Övladının yerini verməsəm də, sən də mənim anamsan, təkcə mənim yox, bu Vətənin bütün övladlarının anasısan...

Şəhid anası... Bu ad qürurludur, bu ad ucadır, bu ad əlçatmazdır... Qadın əyilməzdir, qürurlu bir dağ kimi vüqarlıdır. Sanki Allah qadını yaradarkən ona xüsusi bir vəzifə verib. Nə olur-olsun güclü ol və həyatdan iki əllə tut. Çünki yalnız sən bu həyatı gözəlləşdirənsən. Fədakarsan, çalışqan, əzmli və qeyrətlisən, Azərbaycan qadını. Sən heç vaxt tək deyilsən. Öz gücün, varlığın sənə həmişə ayaqda qalmağa kömək edəcək...

Bəli, heç bir qadın tək deyil bu həyatda. Şəhid anaları bizim anamız, şəhid bacısı, yoldaşı bacımız, onların övladları isə övladımızdır. Bu sözlərim qadının üzündə az da olsa, təbəssüm yaratdı. Onunla birlikdə qardaşımızın məzarına getdik, ruhuna dualar etdik. Əllərindən öpdüm, sağollaşdıq... Sanki qəlbimə ağırlıq verən yük azca xəfifləmişdi. Ruhumu bürümüş duyğularla evimin yolunu tutdum...

**Güntac ŞAHMƏMMƏDLİ**



## Ən qatı ümidsizlik içində belə təsəlli olmaq...

***O hər uçuşa olduğu kimi, bu uçuşa da eyni sevgi və məsuliyyətlə hazırlaşıb, sakit, inamlı addımlarla təyyarəyə doğru irəliləyirdi. Üzündəki təbəssüm onun peşəsinin bir parçası idi. Bu təbəssüm təkcə nəzakət xatirinə deyildi, həm də onun peşəsinə vurğunluğunun, sevgisinin simasında əks olunan rəmzi idi. Hər uçuş bir başqa hekayə, bir başqa xatirə idi onun üçün. Bəzən sevinc dolu, bəzən həyəcanlı, bəzən gərgin… Amma budəfəki yolçuluq digərlərindən daha fərqliydi. Çünki bu yolçuluq onu sonsuzluğa aparırdı. O sonsuzluq ki bu gün onu hər bir azərbaycanlının qəlbində əbədi məşələ çevirdi. Bəli, həmin qəhrəman qadın gülümsəyərək sərnişinlərə "Xoş uçuşlar" arzulayan Hökumə Əliyeva idi.***



Səma sanki onun can evi, tükənməz eşqi idi. O, sərnişinlərlə ünsiyyəti, onlara yardım əli uzatmağı çox sevirdi. Təyyarənin içində bir rahatlıq yaratmaq, sərnişinlərin yolçuluğunun xoş təəssüratlarla yadda qalması onun təkcə vəzifə borcu yox, eyni zamanda insani duyğularının təcəssümü idi. Titrək səsi qulağımızdan getməyən, ölümə meydan oxuyan mübariz Azərbaycan xanımı Hökumə Əliyeva və ekipaj üzvlərinin Bakı-Qroznı reysi üzrə hərəkət edən təyyarənin qəzaya uğraması zamanı yüksək peşəkarlığı, şücaəti və cəsurluğu sayəsində sərnişinlərin bir qismi xilas edildi. Bu şücaət onlara qəhrəmanlıq adı qazandırdı. Hökumə Əliyeva da bu adla Azərbaycanın 3-cü qadın Milli Qəhrəmanı oldu.

Ölümə gedən yolda hər şeyin yaxşı olacağına inanmaq və inandırmaq. Ən qatı ümidsizlik içində belə təsəlli olmaq... O, əsl Azərbaycan qadınına yaraşanı etdi. Nə qədər zərif olsa da, bir o qədər güclü və əzmkar olan bu xanım son dəfə müqəddəs məslək məkanından – buludların üzərindən öz sərnişinlərinə xitab etdi. Bir az sonra sonsuz səma yerlə qovuşdu. Sonuncu dəfə buludlar üzərində hökm ona məxsus idi. Titrək səsli mübariz Azərbaycan qadını yaxşı bilirdi ki, bu onun sonuncu təlimatıdır.

25 dekabr 2024-cü il... Dünya aviasiyası məhz bu tarixdə təyyarə bələdçisi Hökumə Əliyevanın simasında daha bir rəmzə malik oldu. Bu, Azərbaycan qadınının iradə, dözüm, cəsarət və mübarizə rəmzi idi. Səma qədər sevgisini layiqincə ifadə etmək üçün sonsuza qədər mübarizə aparan titrək səsli, mərd ürəkli bu xanımı hər dəfə təyyarə ilə səfər etdikdə çox güman ki, gözümüz axtaracaq. Gördüyümüz hər bələdçini ona bənzədəcəyik. Bir də başımızı səmaya qaldırıb baxanda "Hər şey yaxşı olacaq", – deməyini əsla unutmayacağıq.

…Biz bu qəzadan sonra bir şeyi daha dərindən dərk etdik. Səma yolçuluğumuzun hamarlığını məhz onlara borcluyuq. Budur Azərbaycan qadınının dəyanəti… Dözümlü, mübariz, andından dönməyən Azərbaycan qadını! Onun qarşısını heç nə ala bilməz. Hətta ölüm qorxusu belə…

**Gülcamal TAHİROVA**

## Naxçıvanda 8 Mart – Beynəlxalq Qadınlar Günü qeyd edilib



Martın 7-də Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar "Qadın hüquqlarının təsbiti və təminatı" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxışında qeyd etmişdir ki, Azərbaycan qadınları tarixboyu elm, mədəniyyət, siyasət və hərbi sahələrdə əhəmiyyətli uğurlar qazanmışlar. XX əsrin əvvəllərində Şərqdə ilk dəfə olaraq qadınlara seçki hüququnun verilməsi Azərbaycan qadınının siyasi arenaya çıxışının ilk mühüm mərhələsi oldu. Ümumilikdə, ölkəmizdə qadınların inkişafına xüsusi diqqət yetirilmiş, onların ictimai-siyasi və iqtisadi həyatda aktiv iştirakı təmin olunmuşdur.

Ulu Öndər Heydər Əliyevin ideyaları bu gün də xalqımız üçün bir mayak olmaqla inkişaf və tərəqqi yolumuzu müəyyənləşdirir. Onun siyasi kursunun layiqli davamçısı kimi Prezident İlham Əliyevin atdığı addımlar hər bir azərbaycanlıda qürur və fərəh hissi yaradır.

Naxçıvan qadınları tarixboyu milli mədəniyyətimizin və adət-ənənələrimizin qoruyucusu olmuşdur. Qədim Naxçıvan torpağında qadınlarımız elmin, maarifçiliyin və ictimai həyatın müxtəlif sahələrində öz dəst-xətini qoymuşlar. Bu gün onlar dövlət quruculuğu, hüquq-mühafizə, elm, səhiyyə, təhsil, mədəniyyət, idman, kənd təsərrüfatı və digər sahələrdə fəaliyyət göstərirlər.

Komitə sədri Ramilə Seyidova 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bütün xanımları təbrik edərək onlara sağlam və firavan həyat arzulamışdır.

Sonra Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Əhməd Vəliyev, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədr müavini Xatirə İbrahimli, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Rza Xudiyev, Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini Xəyalə Dadaşova, Naxçıvan Dövlət Universitetinin tələbəsi, Heydər Əliyev təqaüdçüsü Fidan Hüseynova çıxış edərək Azərbaycan qadınlarının ictimai-siyasi fəallığı, Vətənə sədaqəti, ailəyə bağlılığı və fədakarlığı sayəsində həm Şərq, həm də Qərb dünyası üçün unikal inkişaf yolu seçdiklərini bildirib və bayram münasibətilə xanımları təbrik ediblər.

Tədbirin davamında muxtar respublikanın ictimai-siyasi həyatında fəal iştirak edən 20 qadına müxtəlif nominasiyalar üzrə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən diplomlar təqdim edilib.

Tədbir bədii hissə ilə davam edib.

### "Şərq qapısı" qəzetinin əməkdaşı təltif olunub




8 Mart – Beynəlxalq Qadınlar Günü ilə əlaqədar "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Qadın Hüquqlarının təsbiti və təminatı" mövzusunda keçirilən tədbirdə "Şərq qapısı" qəzetinin videoqrafı Səhnə Tağıyeva da təltif olunub.

## Ucalığın mübarək, Azərbaycan qadını... *(esse)*

Qadın ucalıq adının rəmzi, müqəddəsliyin simvoludur. O, Uca Yaradanın yaradılışlar arasında yaratdığı şah əsərdir, insanlığa ən böyük ərməğanı, qutsal əmanətidir... Qadın füsunkar gözəlliyin ülviyyət çələngi, əsrarəngizliyin özü, ecazkarlıq nümunəsidir! Tanrının Yaradandan sonra yer üzündə yaratmaq qüdrəti bəxş etdiyi müqəddəslik təzahürüdür. Gözəllik, zəriflik, nəciblik mücəssəməsidir! İllah da Azərbaycan qadını!

O, qadın müqəddəsliyinin ən ümdə xüsusiyyətləri ilə ucalıq məqamı kimi səciyyələnə bilər. Onun varlığı, həm də qeyrət, namus, vəfa, sədaqət paklığından yoğrulub. Mərdlik, mübarizlik, igidlik kimi ali məfkurədən güc alıb. Azərbaycan qadını gözəlliyi, zərifliyi, nəcibliyi qədər sərt, mərd, mübarizdir. Həssaslığı, kövrəkliyi kimi dözümü, səbri, mətanəti ilə örnəkdir.

O, bir əlində nənni yüyrüyü tutub, "Cəngi" sədasında igid övladlar böyüdüb, tərbiyə edib, bir əlində qılınc tutub, at belində, düşmən önündə igidliyi, qəhrəmanlığı ilə ər igidlərdən seçilməyib. O, cəsarəti, ər qeyrətiylə yağılara qan udduran Tomris anadır. Haqq uğruna vuruşlarda at çapıb, qılınc qurşanan şücaətli Nigar xanımdır, igidliyi dillərdə nəğməylə anılan Həcər xanımdır. İsməti naminə yad önündə oğul dağına razı olan Burla xatındır. Sevgi sınağında hünər göstərən Banuçiçəkdir.

Sevgisində vəfa, sədaqət örnəyi Fərizədir.

Qarabağ uğrunda döyüşlərdə igidlik göstərən, yurd, torpaq sevgisinin ən ümdə fövqdə durduğunu sübut edən Milli qəhrəmanlardır Azərbaycan qadını.

O, azğın erməni qəsbkarlarının gülləsinə tuş gələn, qeyrət, namus mücəssəməsi kimi qaya vüqarında simvollaşan igid xanımımız Gültəkin Əsgərovadır.

Vətənin dar günündə igidliyi, cəsarətiylə Azərbaycançılıq məfkurəsinin ülviliyini möhürləyən Salatın Əsgərovadır...

Möminə xatın əzəməti timsalında müdriklik səltənəti ünvanlıdır Azərbaycan qadını! O, Vətənə sevginin övlad məhəbbətindən ucada olduğunu təsdiqləyən şəhid anasıdır. Qürurla çiynini igid tabutuna verib onu son mənzilə uğurlayan vüqarlı şəhid qadınıdır. Pak məfkurə işığında ölümə "Xoş gəldin", – deyən, "olum-ölüm" dilemmasında qalan sərnişinlərə "Hər şey yaxşı olacaq!" nidasıyla həyat eşqi aşılayan Milli Qəhrəman Hökumə Əliyevadır...

Azərbaycan qadını tarixən öz mənəviyyatı, ağlı, yüksək zəkası, müdrikliyi ilə varlığını sübut edib. Həyatın bütün sahələrində, o cümlədən elm, təhsil, siyasət, diplomatiya və digər istiqamətlərdə böyük uğurlara, möhtəşəm nailiyyətlərə imza atmış və atmaqdadırlar. Bu mənada, ölkəmizdə birinci xanım ucalığında, vətən, xalq naminə misilsiz xidmətlər göstərən Mehriban xanım Əliyevanın fəaliyyəti əsl örnək timsalıdı. Bu sırada Azərbaycan gerçəkliyinin dünyada tanınmasında mühüm işlər görən Leyla xanım Əliyevanın adı da qeyd olunmalıdır.

Beləcə, ucalıq, əzəmət, möhtəşəmlik rəmzidir Azərbaycan qadını.

O, günü-gündən çiçəklənən, siyasi, iqtisadi gücü ilə qüdrətlənən, Qafqazda lider dövlət kimi dünya arenasında söz sahibi olan Azərbaycanımızın daha uca zirvələr fəth etməsində fəallıq nümayiş etdirir. Qanunverici, idarəedici dövlət orqanlarında yüksək vəzifələrdə təmsil olunur. Ölkə iqtisadiyyatının inkişafına, sosial, mədəni-mənəvi yüksəlişinə töhfələr verir...

Ən başlıcası isə o, hər zaman xalqımıza mənsub köklü tarixi ənənələrə, milli-mənəvi, əxlaqi dəyərlərə sədaqəti, vəfası, mətanəti ilə qadın ucalığının fövqündə durmaqdadır. Zərifliyi, nəcibliyi, humanistliyi ilə seçilməkdədir. Ucalığın mübarək Azərbaycan qadını!!!

**Adilə SƏFƏROVA**
***Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi***

## Zəhmətlə ərsəyə gələn hər şey gözəldir

İynə, sap, qayçı, parça və metr. Bu ləvazimatlar bizə hansı peşədən xəbər verir? Bəli, dərzilərin yolyoldaşına çevrilmiş məhz bunlar vasitəsilə adi bir parçadan mükəmməl geyimlər ortaya çıxardıqları əsas ləvazimatlardır. Erkən orta əsrlərdən Avropada mövcud olmağa başlayan dərzilik peşəsi günümüzdə bir çox insanın iş məşğuliyyəti, həm də gəlir mənbəyidir.

Dərzilər həyatımızın hər bir dönəmində ehtiyac duyulan önəmli sənət sahibləridir. Zövqlü geyinmək arzusu yolumuzu hər zaman dərzi atelyelərinə salır. Onların əl əməyi ilə ərsəyə gətirdiyi rəngarəng libaslar zövqümüzü oxşayır. Dərzilik iti gözlər, bacarıqlı əllər, zirək davranış və güclü yaddaş tələb edən sənətdir. Bu sənət sahibləri, sözün əsl mənasında, "yüz ölçüb, bir biçirlər". Qeyd edək ki, bu peşənin nümayəndələri daim yeniliklər öyrənməyə davam edir, geniş fantaziyaya, zövqə və estetikaya malik olurlar. Qədimlərdən dərzilik kişi sənəti kimi qəbul edilsə də, yaşadığımız dövrdə dərzi peşəsinin əsas nümayəndələri məhz qadınlardır. Bu günlərdə yolumuz kiçik, lakin öz xəyallarını, arzularını, peşəsinə olan sevgisini elə həmin atelyedə həyata keçirərək gözəl geyimlər ərsəyə gətirən dərzi, modelyer Sevda Qurbanovanın iş yerinə düşdü.

"Mənə görə dərzilik ruh, beyin və ürək işidir. İncəlik və zövq tələb edir. Rənglərin ahəngini yaratmaq üçün insanda həm də rəssamlıq qabiliyyəti olmalıdır. Dəbi izləməli, yeni bilgilər qazanmalı və bu haqda müştərilərə məlumat verilməlidir. Dərzi həm də yaxşı dinləyici olmalıdır. Doğru, dürüst, məsuliyyətli olmaq da şərtdir. Bəzən bu sənətə layiq olduğu dəyəri vermirlər. Valideynlər yaxşı oxumayan qız övladlarına "Heç olmasa, dərziliyə yiyələnər", – deyirlər. Amma, əksinə, bu sənətdə uğur qazanmaq istəyirsənsə, qeyd etdiyim kimi, savadlı və bilgili olmalısan".




Bunlar gecə-gündüz demədən, ömrünü-gününü, gözünün nurunu, əlinin zəhmətini iynəyə, qayçıya, parçaya hopduran Sevda Qurbanovanın sözləridir. 20 ildir, bu işlə məşğul olan Sevda xanım illər əvvəl əlinə batan iynələrin ağrı-acısına dözərək elə illərin verdiyi təcrübə ilə işinin əsl peşəkarına çevrilib. Bir zamanlar balaca əlləri ilə hazırladığı gəlinciklər üçün donlar bu günlərdə artıq qız-gəlinlərin gözəlliyinə gözəllik qatan ən ecazkar libaslara çevrilir.

Əslində, qadınlar bütün sənətlərə sahib zərif varlıqlardır. Hər bir qadın ən yaxşı ana olmaqla bərabər, həm də ən yaxşı müəllim, həkim, aşpaz, dərzidir. Qadınların edə bilməyəcəyi, öhdəsindən gələ bilməyəcəyi iş yoxdur. Boşuna deyilmir: "Qadın böyük qüvvədir".

**Türkanə ƏSƏDOVA**

## Zərgərlikdəki zərif güc, *yaxud Naxçıvanın ilk və tək xanım zərgəri*

İlk dəfə onun zərgər olduğunu öyrəndikdə təəccüblənmişdim. Axı bu sənət ənənəvi olaraq daha çox kişilərin məşğul olduğu bir sahə kimi tanınır. Bu sahədə bir xanımın möhtəşəm izlər buraxdığının şahidi olduqda, sözün düzü, təəcüblənməklə yanaşı, həm də qürurlandım. Özü də eşidəndə ki, həmin xanım Naxçıvanın ilk və tək qadın zərgəridir, heç düşünmədən zərgər xanımla bağlı yazı hazırlamaq üçün onun kiçik dünyası olan emalatxanasına yollandım. İncəlik, zərafət və nəcibliyin vəhdətini özündə əks etdirən zərgərlik sənətinə kiçik yaşlarından maraq göstərən və öz ustasından böyük həvəslə bu sənətin sirlərini öyrənən Xanım Xudadanova metala can verən, daş-qaşa həyat bəxş edən zərif əlləri ilə gözəlliklər yaradır. İşinin peşəkarı olan Xanımın zərgərlik sənətinə qatdığı ən mühüm xüsusiyyət isə incəlikdir. Təbiətin ahəngini, duyğuların dərinliyini zinət əşyasında əks etdirən zərgər xanım elə bil, metalı duya, hiss edə bilir. Gözoxşayan zinət əşyaları dil açıb öz taleyindən danışmaq istəyir sanki. Bir nişan üzüyü böyük bir sevginin şahidi olduğundan, bir bilərzik nəsildən-nəslə ötürülən bir xatirəyə çevriləcəyindən…

Xanım həm qədim milli motivləri müasir üslubla birləşdirərək keçmişlə gələcək arasında körpü qurur, həm də təbiətdən ilham alaraq çiçəklərin, quşların, ağacların, göyqurşağının, buz salxımlarının, dəniz dalğalarının formasını metallara həkk edir. Bu sənətkarlıq təkcə əl bacarığı deyil, həm də səbir və diqqət tələb edir. Xanım deyir ki, zərgərlik işi saatlarla, günlərlə, hətta aylarla davam edən proses ola bilir. Xırda bir detalın düzgün işlənməsi üçün mikroskop altında saatlarla vaxt sərf olunur. Bu, sadəcə, peşə deyil, fədakarlıq işidir.



Xanım həm aldığı dizayn təhsilindən, həm də texnologiyanın verdiyi imkanlardan istifadə edərək sənətə yeni nəfəs gətirib. 3D modelləşdirmə, lazerlə oyma və digər innovativ metodlar sayəsində daha mürəkkəb və unikal dizaynlar yaradır. Əgər keçmişdə zərgərlik sənəti daha çox təkrarlanan klassik üslublara əsaslanırdısa, bu gün xanım fərdi sifarişlər, şəxsi hekayələr və xüsusi motivlər əsasında əsərlər ərsəyə gətirir. Yaratdığı hər bir əsər onun iç dünyasının, zəhmətinin və sənətə olan sevgisinin ifadəsidir. Xanım üçün zərgərlik, sadəcə, bir peşə deyil, həyatın hər anını incəsənətlə yaşamaqdır. O hər bir metal parçasına, hər bir daş dənəsinə öz ruhunu, duyğularını hopdurur. Onun emalatxanasında sadə bir qızıl parçası zərif sırğaya, bir damla gümüş bənzərsiz boyunbağıya çevrilir.

Xanım deyir ki, bu sənətdə millimetrin yüzdə biri qədər dəqiqlik, hər toxunuşda həssaslıq və hər detallarda düşünülmüş bir harmoniya olmalıdır. Onun emalatxanasında işıq düşən hər bir qızıl parıltısı, səbirlə yonulmuş hər bir daş, saatlarla çəkilən hər bir incə cizgi Xanımın sənətə olan sevgisindən xəbər verir. Bəzən bir üzüklə günlər, hətta həftələr keçirir. Kiçik bir səhv bütün zəhməti məhv edə bilər, lakin o heç vaxt tələsmir. Çünki onun üçün əsas olan işin tez bitməyi deyil, möhtəşəm əl işi ərsəyə gətirməkdir.

Onun bu sənətə gəlişi də maraqlıdır. Deyir: "Uşaqlıqdan zinət əşyalarını maraqla izləyər, hər bir muncuğa, hər bir zinət əşyasına sevgi ilə toxunardım. Vaxt keçdikcə bu sevgi böyük bir maraq və həvəsə çevrildi. Cəmiyyətin "zərgərlik kişilərin sənətidir" stereotiplərinə baxmayaraq, bu sahədə öz yerimi tutmağı bacardım. Bu sənətə ilk addımımı 18 yaşımda atdım. Əvvəlcə kiçik işlərlə başladım. Sırğaların qırılmış hissələrini düzəltdim, köhnə bəzək əşyalarına yeni həyat verdim. Sonra isə öz üslubumu yaratdım. İndi 26 yaşım var və öz emalatxanamda zəhmətimin bəhrəsini görürəm. Təbii ki, bu məni və ailəmi çox sevindirir. Bu sevinc isə əzmimi daha da artırır. Qarşıma qoyduğum daha böyük məqsədlərim var. İnanıram ki, böyük uğurlar qazanacağam (əli ilə qürurla qızıllar düzülən stendi göstərir). Baxın bunların hər biri öz zəhmətimin nəticəsidir. Qazandığım uğurlara görə rəhmətlik ustadım Mahir ustaya borcluyam".

Bu gün Xanım Xudadanovanın yaratdığı zinət əşyaları yalnız bir bəzək əşyası deyil, həm də onun qəlbinin bir parçasıdır. Hər bir əsəri ilə o təkcə insanlara gözəllik bəxş etmir, həm də sənətin və səbrin gücünü nümayiş etdirir. Zərgər xanımın hekayəsi sübut edir ki, sənət cinsiyyət tanımır. O öz əlləri ilə, sadəcə, bəzək əşyaları deyil, eyni zamanda yeni bir yol açır – qadınların istənilən sahədə uğur qazana biləcəyini göstərən bir yol. Onun sənətkarlığı bir daha sübut edir ki, əgər sevgi, əzm və səbir varsa, heç bir maneə insanın arzularına çatmasına əngəl ola bilməz.

**Gülcamal TAHİROVA**

# Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2024-cü il üzrə məruzəsinin xülasəsi

*(əvvəli 4-5-ci səhifədə)*

Hər hansı səbəbdən təhsildən yayınan uşaqlara münasibətdə aidiyyəti qurumlar tərəfindən vaxtında profilaktik tədbirlərin görülməməsi, konstitusion hüquqların pozulmasına gətirib çıxara bilər.

Qeyd edilən halların aradan qaldırılması üçün aidiyyəti qurumlar tərəfindən monitorinqlər keçirilməklə təhsildən yayınan şagirdlərin müəyyən edilməsi və zəruri tərbiyəvi-profilaktik işin aparılması məqsədəmüvafiqdir.

Mülkiyyət hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə, əsas etibarilə, mülkiyyətdə olan əmlakın (evin, tikilinin) müvafiq məhkəmə qərarı olmadan sökülməsi, xüsusi mülkiyyətdə olan evin dövlət ehtiyacları üçün geri alınması və əvəzinin ödənilməməsi və ya əvəzində uyğun kompensasiyanın verilməməsi və digər bu kimi hallar öz əksini tapmışdır.

Mülkiyyət hüququnun pozulması ilə əlaqədar 2024-cü il ərzində Ombudsmana daxil olmuş şikayətlərdə hüquq pozuntusu baş verdiyi vaxtdan 1 ildən artıq müddət keçdiyindən, qanuna uyğun olaraq həmin müraciətlərə baxılmaqdan imtina edilmiş və vətəndaşlara vurulmuş zərərin ödənilməsi ilə bağlı aidiyyəti üzrə müvafiq məhkəməyə müraciət etmək hüququ izah olunmuşdur.

Ombudsmanın müstəqil monitorinq mexanizm funksiyalarının icrası istiqamətində sosial xidmət, təhsil və tibb müəssisələrində 150 monitorinq həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan müəssisələrdə 112, Tibb Müəssisələrinin İdarəetmə Birliyi publik hüquqi şəxsin tabeliyində olan müəssisələrdə 16, Mədəniyyət Nazirliyinin tabeliyində olan müəssisələrdə 9, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan müəssisələrdə 6, Gənclər və İdman Nazirliyinin tabeliyində olan müəssisələrdə 3, Naxçıvan Dövlət Universitetinin tabeliyində olan müəssisələrdə 3, Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrdə 1 monitorinq aparılmışdır.

Monitorinqlər zamanı müəssisələrdə hüquqların təmini vəziyyəti yoxlanılmış, bu məsələlərə diqqətin artırılması və qanunvericiliyin tələblərinə daha ciddi əməl olunması məqsədilə müəssisələrdə maarifləndirmə işi həyata keçirilmiş və yuxarı dövlət orqanlarına təklif və tövsiyələr verilmişdir.

Uşaq hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə, əsasən, alimentin ödənilməsi və ünsiyyət hüququnun təmini ilə bağlı məhkəmə qərarlarının icrası, sağlamlıq, sosial təminat və təhsil hüququ, müəssisəyə yerləşdirmə və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Uşaq hüquqlarının etibarlı və səmərəli müdafiəsi, xüsusilə sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının effektiv təmini məqsədilə araşdırmalar aparılmış, müvafiq dövlət qurumlarına müraciətlər edilmiş, problemlərin həlli istiqamətində zəruri addımlar atılmış, müsbət nəticələr əldə edilmişdir.

Muxtar respublikada müharibə veteranlarına və şəhid ailələrinə Ombudsman tərəfindən daim xüsusi həssaslıqla yanaşılmış, aparatın əməkdaşları tərəfindən bu kateqoriyadan olan şəxslərin ailələrinə mütəmadi ziyarətlər təşkil edilmiş, onların problemləri ilə yerində tanış olunmuş, həlli istiqamətində zəruri addımlar atılmışdır.

Ombudsman həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının təmini, o cümlədən müraciətlərin araşdırılması və həbs yerlərinə başçəkmələrin keçirilməsi üzrə fəaliyyətini hesabat dövründə davam etdirmişdir.

Qeyd etmək lazımdır ki, 2024-cü ildə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 5 nəfər məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 2 nəfər məhkumun cəzaçəkmə müəssisəsinin növü dəyişdirilmişdir. Əfv məsələsi ilə bağlı icraata daxil olmuş müraciətlə əlaqədar Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təklif göndərilmiş və Azərbaycan Respublikası Prezidentinin 25 may 2024-cü il tarixli Sərəncamı ilə 2 nəfər məhkum barəsində əfvetmə tətbiq olunmuşdur.

Gender bərabərliyinin təbliği və təmin olunmasına, qadınların hüquqlarının müdafiəsinə fərdi yanaşılmış, bu istiqamətdə hüquq pozuntularının qarşısının alınmasında səmərəli fəaliyyət təşkil olunmuşdur.

2024-cü il ərzində Ombudsmanın icraatına daxil olan 241 müraciətin 77-si (56 şikayət, 21 ərizə olmaqla), yəni 32 faizi sosial kateqoriyasına görə qadınlar tərəfindən edilmişdir.

Bu sahədə Ombudsmanın ünvanına daxil olan müraciətlərdə məhkəmə qərarlarının icra olunmaması, əmək hüququnun pozulması, məşğulluq, pensiya, əlilliyin təyin edilməsi, tibbi müayinə və müalicə məsələləri, məişət zorakılığı və bu kimi digər məsələlər öz əksini tapmış, hüquq pozuntularının aradan qaldırılması istiqamətində tədbirlər görülmüşdür.

Ombudsman zorakılığın bütün formalarının yolverilməzliyinin, gender bərabərliyinin təmin olunmasının, məişət zorakılığının qarşısının alınmasının və zərərçəkmiş şəxslərin hüquqlarının müdafiəsinin vacibliyini vurğulayaraq muxtar respublikada məişət zorakılığı ilə mübarizə sahəsində aidiyyəti dövlət qurumlarına effektiv tədbirlərin həyata keçirilməsini, mühafizə orderlərinin verilməsini, məişət zorakılığı qurbanlarına daha çevik dəstəyin göstərilməsini, baş vermiş zorakılıq halları ilə əlaqədar onların vaxtında və hərtərəfli yardımla təmin edilməsini təklif edir.

Ahıl vətəndaşların maddi və mənəvi tələbatlarının ödənilməsi, müxtəlif növ xidmətlərin göstərilməsi, sağlamlıqlarının qorunması və tibbi reabilitasiyasının beynəlxalq standartlar səviyyəsində qurulması Ombudsman tərəfindən davamlı araşdırılmış, onlara göstərilən tibbi-sosial xidmətlərin, asudə vaxtlarının təşkili və digər hüquqların təmin olunması vəziyyəti nəzarətdə saxlanılmışdır.

Hərbi qulluqçular və onların ailə üzvlərindən Ombudsmana daxil olmuş müraciətlərdə, əsasən, məhrum olduqları hərbi rütbənin bərpa edilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarının aparıldığı dövrdə hərbi xidmətdə olduğuna dair arayış və digər zəruri sənədlərin verilməsi, sığorta ödənişinin ödənilməsi, habelə hərbi qulluqçuların, ehtiyatda və istefada olan hərbi qulluqçuların və onların ailə üzvlərinin bəzi sosial problemləri, o cümlədən mənzil təminatı ilə bağlı məsələlər öz əksini tapmışdır.

Ombudsman tərəfindən hərbi qulluqçular və onların ailə üzvlərindən daxil olmuş müraciətlər üzrə araşdırmalar aparılmış, aidiyyəti dövlət qurumlarına sorğular verilmiş, onların hüquqlarının təmini və müdafiəsi istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Miqrantların hüquqlarının təmin olunması istiqamətində hüquq pozuntularının qarşısının alınması məqsədilə mütəmadi olaraq başçəkmələr həyata keçirilmiş, saxlanılan şəxslərin beynəlxalq və milli qanunvericiliyə uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyəti araşdırılmışdır.

Hesabat dövründə əhalinin maarifləndirilməsi, beynəlxalq əməkdaşlıq istiqamətində işlər davam etdirilmiş, Ombudsman insan hüquq və azadlıqlarının müdafiəsi, hüquqi, elmi-analitik, informasiya və metodiki məsələlər üzrə öz fəaliyyətini Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilə əlaqələndirmişdir.

Beynəlxalq əməkdaşlıq çərçivəsində Ombudsman Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı Rezident Nümayəndəsi və ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Seçki Müşahidə Missiyasının üzvləri ilə görüşmüşdür.

Ombudsman, Hüquq və İnsan Haqları İnstitutu və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində "İqlim dəyişikliyi və insan hüquqları" mövzusunda aidiyyəti qurumların iştirakı ilə geniş tərkibdə konfrans keçirilmişdir.

Həmçinin Ombudsman və "UNICEF"in Azərbaycan Nümayəndəliyinin birgə təşkilatçılığı ilə "BMT-nin Uşaq Hüquqları Komitəsinin "Uşaq hüquqları haqqında" Konvensiyanın icrası ilə bağlı Azərbaycan Respublikasının beşinci və altıncı məruzələrinə dair Yekun Tövsiyələri" mövzusunda vebinar təşkil edilmişdir.

Ombudsman və təsisatın əməkdaşları Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının birgə təşkilatçılığı ilə "İqlim dəyişikliyi və İnsan Hüquqları: Ombudsman və Milli İnsan Hüquqları İnstitutlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Bakı Forumunda iştirak etmiş və Ombudsman "İqlim dəyişikliyi, onun minalar və müharibənin partlayıcı qalıqları ilə kəsişməsi" mövzusunda çıxış etmişdir.

Ombudsman tərəfindən ənənəvi olaraq 2024-cü ildə də 18 iyun – Azərbaycan Respublikasında İnsan Hüquqları Günü və BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının qəbul edilməsinin ildönümü ilə bağlı Naxçıvan şəhərində və rayonlarda insan hüquqlarına dair müxtəlif aktual mövzulara həsr edilmiş hüquqi maarifləndirmə tədbirləri və aksiyalar keçirilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), Mərkəzi Seçki Komissiyasının birgə təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) iştirakı ilə "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda 2 dəyirmi masa təşkil edilmiş, seçki qanunvericiliyi, seçki prosedurları barəsində geniş məlumat verilmiş, ilk dəfə səsvermə hüququ əldə etmiş gənclərə "Mənim seçki hüququm" adlı vəsaitlər paylanmışdır.

Ombudsmanın təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə "İnsan hüquqları" ilə bağlı məqalə müsabiqəsi elan olunmuş, müsabiqənin qaliblərinə fəxri fərman və hədiyyələr təqdim edilmişdir.

Ombudsman təsisatı tərəfindən autizmli gənc rəssamın "Mənim rəngli dünyam" adlı albom-kataloqu hazırlanaraq aidiyyəti qurumlara və kitabxanalara paylanılmış, uşaq ictimaiyyətinə geniş təqdim olunmuşdur.

Qeyd etmək lazımdır ki, 2024-cü il ərzində Ombudsman tərəfindən beynəlxalq səviyyəli 2 tədbir təşkil edilmiş və aparatın əməkdaşları beynəlxalq səviyyəli 5 tədbirdə iştirak etmişdir. Həmçinin müxtəlif sosial qruplara ünvanlanmış və insan hüquqlarının müxtəlif istiqamətləri üzrə respublika səviyyəli plan üzrə 51, plandankənar 51 olmaqla, 109 tədbir (konfrans, təlim, seminar və sair) keçirilmişdir. Ümumilikdə, 78 müəssisəni əhatə edən tədbirlərdə 4733 nəfər iştirak etmişdir.

2024-cü ildə Ombudsmanın II Qarabağ müharibəsinin gənc veteranları, o cümlədən "Naxçıvan Qaziləri" İctimai Birliyinin sədri və üzvləri, vətəndaş cəmiyyəti institutlarının rəhbər şəxsləri və uşaqlarla görüşü olmuşdur.

Həmçinin Ombudsman "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununu nəzərə almaqla dövlət orqanlarında gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasına, eyni zamanda ölkədə könüllülük hərəkatına dəstək olmaq, gəncləri Ombudsman aparatında könüllü fəaliyyətə cəlb etmək məqsədilə "Könüllülük proqramı"nın icrasına başlamışdır.

Ombudsman geniş ictimaiyyətlə əlaqələrin daha sıx və səmərəli təşkili məqsədilə media subyektləri ilə əməkdaşlığını daha da genişləndirmiş, sosial şəbəkə hesabları vasitəsilə təsisatın fəaliyyəti barədə məlumatlara əlçatanlığı təmin etmişdir.

Ombudsmanın fəaliyyəti ilə bağlı yerli və ölkə mediasında 316, rəsmi internet səhifəsi və sosial media hesablarında 942 informasiya materialı olmaqla, ümumilikdə, 1258 informasiya materialı işıqlandırılmışdır.

## TƏKLİFLƏR

Ombudsman insan hüquq və azadlıqlarının səmərəli təmin olunması və etibarlı müdafiəsi məqsədilə aşağıdakıları təklif edir:

– Əlilliyin müəyyən olunması ilə bağlı həkim-məsləhət komissiyalarının göndərişləri ilə tibbi-sosial ekspert komissiyalarının rəyləri arasında ziddiyyətlərin aradan qaldırılması məqsədilə "Tibbi-Sosial Ekspert Komissiyasına göndərişlərin reyestri"nə daxil edilməli olan məlumatlara dair tələblərin dəqiq müəyyən edilməsini;

– Əlillik vəziyyətinin qiymətləndirilməsi ilə bağlı rəsmiləşdirilmiş göndərişlərə dair qərarların qəbul edilməsi zamanı, o cümlədən əlillik vəziyyətinin müəyyən edilməsi zamanı tibbi-sosial ekspert komissiyaları ilə həkim-məsləhət komissiyaları arasında funksional əlaqələndirmənin təmin edilməsini;

– Əlillərin həyat şəraitinin yaxşılaşdırılması üçün fiziki məkanların (binaların, nəqliyyat vasitələrinin) əlillərə uyğunlaşdırılması və iş yerlərində uyğun şəraitin yaradılmasını;

– Uşaqların sağlam fiziki və psixi inkişafına, onların sağlamlıq vəziyyətinə tibbi-profilaktik nəzarətin gücləndirilməsi, eyni zamanda 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin müntəzəm olaraq müvafiq tibbi-reabilitasiya xidmətlərindən istifadəsinin daha əlçatan olmasını;

– Məktəbəqədər təhsil müəssisələrində uşaqların sağlamlığın qorunması hüququnun təmin edilməsi sahəsində səmərəliliyin artırılması məqsədilə qidanın keyfiyyətinə nəzarətin artırılmasını, qida normalarının müasir standartlara uyğunlaşdırılmasını;

– Erkən uşaqlıq dövründə uşaqların inkişafının təmin olunması, uşaqların gələcəkdə sağlamlıq və sosial risklərə məruz qalma ehtimalının qarşısının alınması məqsədilə məktəbəqədər təhsil müəssisələrində "uşaq psixoloqu" ştatlarının yaradılmasını;

– Ümumtəhsil müəssisələrində mövcud psixoloq ştatlarının şagird sayına uyğun artırılmasını, habelə peşəkar və ixtisaslaşmış psixoloqların cəlb edilməsini;

– İnternat məktəbində gecələyən təhsilalanların sağlam, təhlükəsiz və inkişaf etdirici mühitdə yaşamaq hüququnun təmin edilməsi məqsədilə "gecə dayəsi" və "psixoloq" ştatlarının sayının artırılmasını;

– Məktəblərdə və digər təlim-tədris müəssisələrində insan hüquqları mövzusunun tədris edilməsini və bu sahədə maarifləndirmə proqramlarının keçirilməsini;

– Çətin həyat şəraitində olan, o cümlədən məişət zorakılığından zərərçəkmiş şəxslərin, xüsusən qadın və uşaqların təhlükəsizliyinin və müdafiəsinin xüsusi təlim keçmiş mütəxəssislərin köməyi ilə təmin edilməsi məqsədilə yardım mərkəzlərinin, sığınacaq evlərinin, psixoloji dəstək mərkəzlərinin yaradılmasını;

– Zorakılıq halları ilə mübarizə üçün təhsil və məlumatlandırma kampaniyalarının təşkil edilməsini, cəmiyyətdə zorakılığa qarşı tolerantlıq prinsipinin gücləndirilməsini;

– Məhkumların maddi ehtiyaclarının, habelə aliment və başqa borclarının ödənilməsi və ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində yeni istehsal sahələrinin yaradılmasını;

– Penitensiar müəssisələrdə məhkumlara psixoloji yardımın göstərilməsi məqsədilə məhkumlarla işləmək bacarığına malik peşəkar və ixtisaslaşmış psixoloqların cəlb edilməsini;

– Məhkum edilmiş şəxslərin təhsil almaq hüququnun təmin edilməsi, orta ixtisas və ya ali təhsilini davam etdirməsi, öz bilik və bacarıqlarını artırması məqsədilə müvafiq mexanizmlərin yaradılmasını;

– Video zənglərin təşkil edilməsinin məhkumun ailəsi və yaxınları ilə əlaqələrini möhkəmləndirməklə islah prosesinə müsbət təsirini, görüş üçün sərf ediləcək nəqliyyat xərclərinə (xüsusilə uzaqda yaşayanlar üçün) qənaəti nəzərə alaraq məhkumların videogörüş keçirmək hüququnun təmin olunması üçün zəruri addımların atılmasını;

– Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə uyğunlaşdırılması, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması, bu şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin və onlara təsir göstərə bilən kriminogen amillərin qarşısının alınması məqsədilə sosial adaptasiya mərkəzinin yaradılmasını;

– Daxili İşlər Nazirliyinin müvəqqəti saxlama yerlərində və kameralarında saxlanma şəraitinin qanunvericiliyin tələblərinə uyğunlaşdırılmasını, əsaslı təmir-bərpa işlərinin aparılmasını;

– Muxtar respublikanın bir sıra bölgələrində suvarma suyu ilə bağlı problemlərin həlli məqsədilə yeni artezian quyularının qazılmasını.

Qeyd edilənlərlə yanaşı, Ombudsmanın fəaliyyətinin daha səmərəli təşkili məqsədilə strukturun təkmilləşdirilməsi və maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə aşağıda göstərilmiş məsələlərin həllinin zəruriliyi diqqətə çatdırılır:

– Başçəkmələrin və monitorinqlərin yüksək səviyyədə təşkili və operativ şəkildə həyata keçirilməsi məqsədilə Ombudsman aparatında "Başçəkmələr və monitorinqlər sektoru"nun və onun tərkibində müvafiq ştatların (sektor müdiri; böyük məsləhətçi-həkim; böyük məsləhətçi-psixoloq) və maddi-texniki bazanın yaradılmasını;

– Ombudsman aparatının inzibati binasına buraxılışın və idarədaxili rejimin, təhlükəsizliyin və mülkiyyətin mühafizəsinin təmin edilməsi məqsədilə təsisatda mühafizə xidmətinin fəaliyyət göstərməsini;

– İnsan hüquqlarının müdafiəsinin daha səmərəli və operativ təmin edilməsi məqsədilə Ombudsman təsisatında "Çağrı mərkəzi" xidmətinin yaradılmasına maliyyə dəstəyinin verilməsini.

Ombudsmana etimad göstərərək müraciət edən şəxslərə, həmçinin insan hüquq və azadlıqlarının təmini və müdafiəsi istiqamətində əməkdaşlıq edən dövlət orqanlarına və vətəndaş cəmiyyəti institutlarına təşəkkürümü bildirirəm.

# Naxçıvanda "Rəhbər şəxslər üçün idarəetmədə müasir yanaşmalar və emosional intellekt" mövzusunda təlim olub





Fevralın 28-də Naxçıvan Təlim Mərkəzinin təşkilatçılığı ilə keçirilən təlimdə mərkəzin idarə heyətinin sədri Tağı Tağızadə çıxış edərək bildirib ki, təlimlərin keçirilməsində əsas məqsəd dövlət orqanlarında çalışan işçilərin, gənclərin peşəkar və şəxsi inkişafının dəstəklənməsidir. Qeyd olunub ki, mərkəz tərəfindən qısa müddət ərzində müxtəlif mövzularda təşkil edilən bir çox təlimlərdən iştirakçılar faydalanıblar.

Tağı Tağızadə təlimin işinə uğurlar arzulayıb.

Təlimçi uzun illərdir, müxtəlif universitetlərin MBA proqramlarında insan resurslarının idarə edilməsi, liderlik və təşkilati davranış, beynəlxalq idarəetmə və strateji idarəetmə mövzularını tədris edən Allahverdi Bağırov olub. O, lider və menecerin fərqi, idarəetmədə müasir yanaşma, formal və informal liderlər, emosional intellekt, işçi heyətinin inkişafı və digər mövzularda iştirakçılara məlumat verib.

Təlimin gedişində iştirakçıların fikirləri dinlənilib, sualları cavablandırılıb.

Qeyd edək ki, təlim iki hissədən ibarət olub. Birinci hissədə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşları, nazir müavinləri, yerli icra hakimiyyəti və digər orqanların rəhbər şəxsləri, ikinci hissədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin əməkdaşları, dövlət qurumlarında çalışan şöbə və sektor müdirləri iştirak ediblər.

# Azərbaycan-Türkiyə Rəqəmsal Yaradıcılıq Forumu keçirilib



Forum Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin maliyyə dəstəyi, "Gənclərin Töhfəsi" İctimai Birliyinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin, "Azərbaycan-Türkiyə Qida Təhlükəsizliyi" İctimai Birliyinin və Azərbaycan Respublikası Gənclər Fondunun Naxçıvan filialının tərəfdaşlığı ilə baş tutub.

Nazirliyin mətbuat xidmətindən "Şərq qapısı"na bildirilib ki, Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Gülşad Rüstəmova və digər qonaqlar tədbirin əhəmiyyətindən bəhs ediblər. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin şöbə müdiri Pərvin Həsənov çıxış edərək texnologiyanın həyatımızın bütün sahələrinə nüfuz etdiyi bir dövrdə rəqəmsal yaradıcılığın artıq təkcə dizaynerlərin və ya proqramçıların sahəsi deyil, o cümlədən mədəni irsin qorunması baxımından mühüm rol oynadığını vurğulayıb.

Layihə rəhbəri Məhsəti Hüseynovanın aparıcılığı ilə davam edən panel diskussiyada spiker Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin əməkdaşı Anar Təhməzli rəqəmsal yaradıcılığın əhəmiyyətindən bəhs edib, mədəniyyətlərarası əlaqələrdə rəqəmsal texnologiyanın əsas amillərini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Həmçinin Mədəniyyət Nazirliyinin bu sahədə gördüyü işlərdən bəhs edib, rəqəmsal texnologiyaların Naxçıvanın mədəni irsini dünyaya tanıtmaq üçün böyük imkanlar yaratdığını qeyd edib.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Simli kvarteti konsert proqramı ilə çıxış edib.

Qeyd edək ki, forumun məqsədi Azərbaycan və Türkiyə arasında rəqəmsal yaradıcı sənayelərdə peşəkar inkişafı və əməkdaşlığı gücləndirərək innovativ yanaşmaları və mədəni əlaqələri təşviq etməkdən ibarətdir.



# "YAŞAT" Fondu Naxçıvanda "Qış düşərgəsi" reallaşdırıb

25-27 fevral 2025-ci il tarixdə "YAŞAT" Fondunun təşkilatçılığı ilə Naxçıvanda şəhidlərimizin övladları üçün "Qış düşərgəsi" reallaşdırılıb.

Bununla əlaqədar iştirakçılar 25 fevral tarixdə Heydər Əliyev Beynəlxalq Aeroportundan yola düşüblər. Layihə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası ilə birgə tərəfdaşlıq çərçivəsində, həmçinin "Azərbaycan Hava Yolları" QSC-nin dəstəyi ilə baş tutub.

11-16 yaş aralığındakı 25 iştirakçını əhatə edən düşərgənin məqsədi uşaqlar üçün qış mövsümünə uyğun olan əyləncəli idman oyunlarına maraq oyatmaq, yeni dostluqların qurulması üçün şərait yaratmaqdır.

Düşərgə çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov, AHİK sədrinin müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdulayev uşaqlarla görüşüblər.

Rəsmilər şəhid övladları ilə söhbət aparıb, onların müxtəlif mövzularda suallarını cavablandırıblar.

Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyinə ekskursiya da təşkil olunub. Həmçinin Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ümumilikdə, 3 gün ərzində iştirakçılar Ağbulaq İstirahət Mərkəzində xizək təlimlərində, kirşə sürüşlərində və digər oyunlarda əyləncəli vaxt keçiriblər.

"YAŞAT" Fondu tərəfindən şəhidlərimizin övladları üçün ölkə daxilində və xaricində düşərgələr, təlim kursları və digər tədbirlər mütəmadi təşkil olunur.





# Muxtar respublikada tibb xidmətinin keyfiyyətinin artırılması məqsədilə maddi-texniki baza gücləndirilir



Bu yeniliklər Naxçıvan əhalisinin sağlamlığına öz töhfəsini verməklə yanaşı, tibbi xidmətə əlçatanlığı daha da yaxşılaşdıracaq.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planı"nına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən bir sıra işlər həyata keçirilir.

Belə ki, Naxçıvan Sağlamlıq Mərkəzində tibbi xidmətlərin keyfiyyətini artırmaq məqsədilə bir sıra yeniliklər həyata keçirilib.

Məlumat üçün qeyd edək ki, mərkəzə kardioreanimasiya, ümumi reanimasiya və kardiocərrahiyyə üçün müvafiq olaraq 2 ədəd xəstəbaşı monitor, ümumi cərrahiyyə üçün 1 ədəd xəstəbaşı monitor və transfer üçün 1 ədəd xəstəbaşı monitor avadanlıqları alınıb. Cərrahi prosedurların keyfiyyətini artırmaq məqsədilə 2 ədəd cərrahi aspirator, 1 ədəd audiometriya cihazı, yenidoğulmuşlarda eşitmə qabiliyyətini müayinə etmək üçün 1 ədəd cihaz və 2 ədəd su distilliyatoru alınmışdır.

Bundan başqa, mərkəzdə müalicə və prosedurların düzgün idarə olunması üçün 5 ədəd avtomatik şırınqa pompası, 3 ədəd avtomatik infuziya pompası, 1 ədəd anesteziya cihazı, 1 ədəd anesteziya monitoru və 1 ədəd süni tənəffüs aparatı təmin edilib. Digər vacib avadanlıqlar arasında 1 ədəd soyuducu, 3 ədəd tibbi dondurucu və qan bankı üçün 1 ədəd tibbi soyuducu da mövcuddur. Xəstələrin temperaturunun qorunması üçün 1 ədəd xəstə isitmə cihazı, 2 ədəd qan və infuziya məhsulları isidicisi, 1 ədəd dondurulmuş qan preparatlarının əridilməsi cihazı alınıb.

Yeni alınan avadanlıqlar arasında 6 ədəd bakterisid şüalandırıcı, 8 ədəd 4 ayaqlı əsa, 4 ədəd kirli-təmiz camaşır arabası və 4 ədəd tibbi tullantıların daşınması üçün araba da mövcuddur. Larinqoskop və videolarinqoskop dəstləri, 1 ədəd radiotezlikli venoz ablasiya cihazı, 1 ədəd əməliyyat masası üçün qızdırıcı və 1 ədəd elektron nebulyazer də alınan avadanlıqlar arasında yer alır.

Reanimasiya və cərrahiyyə sahəsində 13 ədəd 4 motorlu reanimasiya çarpayısı, 10 ədəd 5 motorlu reanimasiya çarpayısı və 23 ədəd reanimasiya çarpayıları üçün döşək mövcuddur. Eyni zamanda 28 ədəd 3 motorlu cərrahiyyə çarpayısı və 28 ədəd cərrahiyyə çarpayıları üçün döşək alınaraq mərkəzə gətirilmişdir. Xəstələrin daşınması üçün 2 ədəd xəstə daşıma arabası, 2 ədəd xərək, 4 ədəd əlil arabası, 1 ədəd xəstə yuma arabası, 2 ədəd xəstə önü yemək masası və 1 ədəd xəstə daşıyıcı kran alınıb.

Həmçinin Ailə Sağlamlıq mərkəzləri, Onkoloji Mərkəz və Hemodializ Mərkəzi üçün də bir sıra avadanlıqlar alınıb.Bu mərkəzlərdə təmir işləri başa çatdıqdan sonra avadanlıqlar mərkəzlərin istifadəsinə veriləcəkdir.

Qeyd edək ki, mərkəzlərdə həyata keçirilən bu islahatlar, tibbi xidmətlərin keyfiyyətini artırmaq və xəstələrə yüksək səviyyədə sağlamlıq xidmətləri təqdim etmək məqsədini daşıyır. Bu yeniliklər Naxçıvan əhalisinin sağlamlığına öz töhfəsini verməklə yanaşı, tibbi xidmətə əlçatanlığı daha da yaxşılaşdıracaq. Adıçəkilən avadanlıqların alınması, mərkəzin tibbi infrastrukturunun gücləndirilməsinə və müalicə proseslərinin daha effektiv, rahat və təhlükəsiz şəkildə həyata keçirilməsinə imkan yaradacaq.

***

Bundan başqa, Naxçıvan Sağlamlıq Mərkəzində əhalinin daha komfortlu və effektiv müalicə alması üçün genişmiqyaslı infrastruktur yenilənməsi aparılıb, maddi-texniki bazası gücləndirilib. Belə ki, mərkəzdə müasir tələblərə uyğun laboratoriya qurulub və bu laboratoriya üçün müvafiq avadanlıqlar alınıb. Qısa müddət ərzində bu avadanlıqların istifadəyə verilməsi nəzərdə tutulur. Həmçinin mərkəzdə onkoloji xəstələr üçün kimyaterapiya prosedurlarının təhlükəsiz və rahat şəkildə həyata keçirilməsi məqsədilə xüsusi bir bölmə ayrılıb. Bu bölmədə müalicə prosesinin daha effektiv şəkildə təşkil olunması üçün hərtərəfli şərait yaradılıb.

Mərkəzdə əlavə olaraq iki yeni müasir avadanlıqlarla təchiz edilmiş əməliyyat otaqları istifadəyə verilib. Bu otaqlardan biri hibrid əməliyyat otağıdır ki, bu otaqda yüksək dəqiqlikli diaqnostik və cərrahi müdaxilələrin eyni vaxtda aparılması mümkündür.

Eyni zamanda mərkəzdə pasiyentlər üçün yüksək səviyyəli xidmət təklif edən, müasir standartlara cavab verən palatalar hazırlanıb. Bu palatalar rahatlıq və fərdi qayğı prinsiplərinə əsaslanaraq dizayn edilib və artıq iki palata istifadəyə verilib. Digər palataların təmir işləri yekunlaşdıqda onlar da xidmətə təqdim olunacaq. Həmçinin Naxçıvan Sağlamlıq Mərkəzində yaradılmaqda olan laboratoriyada İcbari Tibbi Sığortanın xidmətlər zərfinə daxil olan bütün laborator xidmətlər göstəriləcək.

Məlumat üçün qeyd edək ki, genişmiqyaslı infrastruktur yenilənməsi təkcə Naxçıvan Sağlamlıq Mərkəzini deyil, eyni zamanda Ailə Sağlamlıq Mərkəzini, Onkoloji Mərkəzi və Hemodializ Mərkəzini də əhatə edəcəkdir. Həyata keçirilən bu işlər, hər şeydən əvvəl, səhiyyə sisteminin müasir tələblər sisteminə uyğun qurulmasına xidmət edir.

# Dəyişən dünya, güclənən qadın: Azərbaycan nümunəsi

*Tarixboyu Azərbaycan qadınları ailədə, təhsildə, iqtisadiyyatda, siyasətdə və mədəniyyətdə öz fəaliyyətləri ilə seçilmişlər. Xüsusilə XX əsrin əvvəllərindən etibarən qadınların sosial həyatda iştirakı sürətlə artmış, onların hüquqlarının genişləndirilməsi istiqamətində bir sıra mühüm addımlar atılmışdır. Müasir dövrdə isə Azərbaycan qadınları ictimai, siyasi və iqtisadi sahələrdə fəal iştirak edərək cəmiyyətin inkişafına köməklərini göstərməkdədirlər. Müasir dünyamızda istənilən cəmiyyətin sürətli inkişafının təmin edilməsinin kökündə duran əsas məqamlardan biri tək güclü yox, həm də zərif cinsin nümayəndələrinin ictimai fəallıq dərəcəsindən və bunun üçün yaradılan şəraitdən bilavasitə asılıdır. Bəşər tarixi sübut edir ki, tərəqqisində qadınların da rol oynadıqları cəmiyyətin inkişaf dərəcəsi daha sivilizasiyalı, modern, sürətli xarakterə malikdir.*



**Nuray ƏLİYEVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, filologiya elmləri doktoru***

XX əsrin əvvəlləri Azərbaycan qadınlarının sosial həyatda rolunun daha da genişlənməsi ilə xarakterizə olunur. Xüsusilə 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlara seçki hüququnun verilməsi qadın azadlığının ən mühüm nailiyyətlərindən biri olmuşdur.

Sovet dövründə isə qadınların təhsilə, iş həyatına və ictimai fəaliyyətlərə cəlb olunması daha da genişləndi. Bu dövrdə Azərbaycan qadınları elm, səhiyyə, sənaye və digər sahələrdə çalışaraq ölkənin inkişafına töhfə verdilər, elm və mədəniyyət sahələrində böyük müvəffəqiyyətlər qazandılar.

Müstəqillik dövründə Azərbaycan qadınlarının sosial həyatda rolu daha da artdı. Bunun başılca səbəbi Ulu Öndərimiz Heydər Əliyevin yürütdüyü uğurlu qadın siyasəti idi. O, həyatın bütün sahələrində qadınlara xüsusi yer ayırdı, onların hərtərəfli fəaliyyətinə geniş meydan verdi, lider qadınlar yetişdirdi. Ulu Öndər qadınların hüquqlarını qorumağı dövlət siyasətinin prioritetlərindən biri elan etdi. 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyasında qadın və kişilərin bərabər hüquqları təsbit olundu. Ümummilli Liderin hakimiyyəti dövründə qadınların parlamentdə və icra hakimiyyəti orqanlarında təmsilçiliyi yüksəldi. O, qadınların dövlət idarəçiliyində daha fəal iştirakına təşviq edən çıxışlar edirdi. Dahi rəhbərin müəyyənləşdirdiyi qadın siyasəti Azərbaycan cəmiyyətində qadınların rolunu gücləndirdi, onların sosial, siyasi və iqtisadi həyatda daha fəal iştirakını təmin etdi. Uzun illərə hesablanmış bu siyasət dövrümüzdə uğurla davam etdirilir.

Qadınlar indi cəmiyyətin müxtəlif sahələrində – siyasət, biznes, elm, mədəniyyət və digər sahələrdə fəal iştirak edir, həmçinin müasir dünyamız üçün çox aktual olan iqlim fəaliyyətlərinin ön sıralarında gedir. Onlar iqlim fəalları kimi liderlik nümayiş etdirir, təşəbbüslər irəli sürürlər.

Müstəqil Azərbaycanda qadınların siyasi həyatda iştirakı daim artmaqdadır. Milli Məclisdə və Naxçıvan Muxtar Respublikası Ali Məclisində qadın deputatların sayı getdikcə çoxalır və onlar qanunvericilik proseslərində fəal iştirak edirlər. Bundan əlavə, qadınlar dövlət idarəçiliyində də mühüm vəzifələr tuturlar. Mehriban xanım Əliyevanın Azərbaycanın birinci xanımı və Birinci vitse-prezident kimi fəaliyyəti qadınların ölkə rəhbərliyindəki rolunun ən yaxşı nümunəsidir.

Azərbaycan qadınları bu gün iqtisadi sahədə də böyük mövqeyə malikdirlər. Bir çox qadın sahibkarlar biznes sahəsində uğurlar qazanaraq ölkə iqtisadiyyatına töhfə verirlər. Dövlətin qadın sahibkarlığının inkişafına dəstəyi nəticəsində qadınların iş dünyasında iştirak faizi artmaqdadır.

Elm və təhsil sahəsində də Azərbaycan qadınları mühüm rol oynayırlar. Elmi-tədqiqat müəssisələrində, universitetlərdə qadın akademiklər, professorlar və tədqiqatçılar çalışır. Azərbaycan qadınları beynəlxalq layihələrdə iştirak edərək ölkəmizi dünyada layiqincə təmsil edirlər.

Qadın həyatdır, anadır, gözəllik, ülvilik rəmzidir. Dünyanı gözəlləşdirən, həyatı mənalandırandır. Azərbaycan qadınının gözəlliyi, sədaqəti, mərdliyi, ana məhəbbətinin ülviliyi xalq yaradıcılığı nümunələrində, görkəmli sənətkarlarımızın əsərlərində dönə-dönə vəsf olunmuşdur. Böyük mədəni irsə malik olan Azərbaycan xalqı qadının ailədə və cəmiyyətdəki roluna daim böyük ehtiramla yanaşmışdır. Çünki həyatın elə bir sahəsi yoxdur ki, orada qadınlarımız olmasın. Bu sahələrin hər birində onlar uğurla çalışmaqla hamıya örnəkdirlər.

# Azərbaycan qadını: ictimai-siyasi həyatda rolu və nailiyyətləri



*Tarix səhifələrimiz Azərbaycan qadınının müdrikliyi, fədakarlıq və qəhrəmanlığının parlaq nümunələri ilə olduqca zəngindir. Azərbaycan qadını tarixboyu ölkənin inkişafında mühüm rol oynayaraq milli dəyərlərin, mədəniyyətin və mənəviyyatın qoruyucusu olub.*

**Qəzənfər ABDULLAYEV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri***

“Kitabi-Dədə Qorqud” dastanındakı qadın surətləri bu gün də öz aktuallığını qoruyaraq bəşəri dəyərləri tərənnüm edir. Dahi sənətkarımız Nizami Gəncəvinin əsərlərində qadının azad sevgi hüququnu tərənnüm etməsi, vətəninin müdafiəsinə qalxan, ölkəni idarə edən cəsur və qəhrəman qadın obrazları yaratması, XII əsrdə görkəmli memar Əcəmi Naxçıvani tərəfindən qədim diyarımız Naxçıvanda ucaldılmış Möminə xatın türbəsi, eləcə də Qarabağlar türbəsi, dahi şairimiz Hüseyn Cavidin “Qadın gülərsə şu issız mühitimiz güləcək, sürüklənən bəşəriyyət qadınla yüksələcək!” ifadəsi qadına göstərilən ehtiramın parlaq ifadəsidir.

Ulu Öndərimiz Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən sonra digər sahələrlə yanaşı, dövlət qadın siyasəti də mütəşəkkil forma almış, qadınlarımızın cəmiyyətdə rolu və fəallığı artmış, onların ictimai-mədəni həyatda yeri daha da möhkəmlənmişdir.

1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında qadın hüquqları da öz əksini tapmış, dövlət quruculuğu prosesində onların iştirakı təmin edilmişdir. IV Ümumdünya Qadın Konfransında Azərbaycan Pekin Bəyannaməsi və Fəaliyyət Platformasına qoşularaq qadın hüquqlarının qorunması, onların cəmiyyətdə rolunun gücləndirilməsi və gender bərabərliyinin təmin olunması istiqamətində qlobal təşəbbüslərə dəstək vermişdir.

Ümummilli Liderin 1998-ci il 14 yanvar tarixli Fərmanı ilə Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, 2000-ci il 6 mart tarixli “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” Fərmanla Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunmasının təmin edilməsi, Azərbaycan Qadınlarının Birinci Qurultayının keçirilməsi qadınların hüquqlarının qorunmasına, ölkəmizin sosial və siyasi həyatında onların iştirakının artırılmasına, xüsusilə dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasına yeni mərhələ açmışdır.

Azərbaycan qadının rolu, xüsusilə Vətən müharibəsində bir daha qabarıq şəkildə özünü göstərdi. Qəhrəman analar övladlarını Vətənə, torpağa, millətə sədaqət ruhunda böyüdərək onlara Ulu Öndər Heydər Əliyev ideyalarına sadiqlik, dövlətçiliyə bağlılıq və milli kimliyini qorumaq kimi ali dəyərləri aşıladılar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***“Xüsusi vurğulamaq istəyirəm ki, Azərbaycan qadını milli dövlət quruculuğu işinin fəal iştirakçısı kimi müstəqillik illərindəki nailiyyətlərimizin zirvə nöqtəsinə yüksəlməyimiz və parlaq Qələbə sevinci yaşamağımız naminə var qüvvəsini səfərbər etmişdir. Göz açıb azad gördüyü yurdunu ana qədər müqəddəs bilən, milli ideallara sadiq gənc nəsli də o, məhz öz mənəvi gücü, polad iradəsi hesabına yetişdirmiş, tarixin hökmü ilə ədalətin zəfər çalacağına və haqq işimizin qalib gələcəyinə həmin nəslin qəlbində sarsılmaz inam duyğusu aşılamışdır. Azərbaycan qadınının müasir dövlətçiliyimizə ən dəyərli töhfəsi olan bu nəsil 44 günlük Vətən müharibəsində rəşadəti ilə xalqımızın mübarizlik rəmzinə dönərək ümidləri tam doğrultmuşdur”.***

Bu gün Azərbaycanda qadın hərəkatının önündə təqdirəlayiq işlərlə bütün dünyada ölkəmizi layiqincə təmsil edən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva dayanır. Öz insanseverliyi, Vətənə məhəbbəti, insanlara qayğıkeşliyi, mərhəməti ilə hər bir Azərbaycan vətəndaşına nümunə olan Mehriban xanım adət-ənənəmizin beynəlxalq arenada tanınmasında mühüm işlər görür. Azərbaycan Respublikasının dünya miqyasında tanınması baxımından Heydər Əliyev Fondunun prezidenti kimi də Mehriban xanım Əliyevanın əvəzolunmaz xidmətləri var.

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası da dövlətin gender bərabərliyi və qadın siyasətinə uyğun olaraq qadın hüquqlarının qorunması, onların əmək, sosial və iqtisadi hüquqlarının təmin edilməsi, cəmiyyətdə fəal rolunun artırılması istiqamətində ardıcıl fəaliyyət göstərir. Şura qadınların əmək hüquqlarının qorunması və layiqli iş şəraitinin yaradılması üçün müəssisə və təşkilatlarda həmkarlar ittifaqı komitələri vasitəsilə nəzarət mexanizmləri həyata keçirir. Qadınların peşəkar inkişafına dəstək olmaq məqsədilə bir sıra tədbirlər təşkil edilir. Bundan əlavə, sosial müdafiəyə ehtiyacı olan qadınların, o cümlədən tənha qadınların, şəhid və qazilərin ailə üzvlərinin sosial təminatının yaxşılaşdırılması istiqamətində də müxtəlif dəstək proqramları həyata keçirilir. Mədəni-kütləvi və idman tədbirlərində qadınların fəal iştirakı təmin edilərək onların ictimai həyatda rolunun artırılmasına xüsusi diqqət yetirilir.

Bütün bunlar Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət-qadın siyasətinin nəticələridir. Ümummilli Liderin siyasi-ideoloji yolu bundan sonra da davam edəcək, qadınlarımız üçün daha da geniş imkanlar yaradılacaq.

# 8 Mart – Beynəlxalq Qadınlar Günü qadınlara ehtiramın ifadəsidir



***“Qadın zərif məxluqdur. Biz qadını sevməliyik, qadına hörmət etməliyik, qadını həmişə yüksək tutmalıyıq və qadının cəmiyyətdə rolunu daim yüksəltməliyik. Qadınlar dövlətimizin, müstəqilliyimizin, bu günümüzün dayağıdırlar”**, – deyən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qadınlar haqqında söylədiyi bu qiymətli fikirlər Azərbaycan qadınına verilən ən böyük dəyərdir.*

**Qafar QƏNBƏROV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

Adı hər zaman şərəf və iftixarla çəkilən qadına Tanrı ən xoşbəxt cəhətləri bəxş etmişdir. Azərbaycan qadınının tarix salnaməsində özünəməxsus yeri vardır. Azərbaycan qadınının ruhuna, qanına Tomris ədaləti, Sara xatın siyasəti, Məhsəti döyüşkənliyi, Natəvan səxavəti və xeyirxahlığı, Heyran xanım həsrəti hopub. Təbiətin ecazkar gözəlliklərini sirli-sehrli rəssam təxəyyülü ilə ağ kətanlara nəqş edən Maral Rəhmanzadə, dərinmənalı, könül oxşayan, incə ruhlu şeirləri ilə yaddaşlara həkk olunan Məhsəti Gəncəvi, hər misrasına həsrət yağışı çilənən Heyran xanım, səxavəti ilə millətinin yoluna maarif ziyası yayan Xurşidbanu Natəvan, yaradıcılıqları ilə ürəkləri ovsunlayan Mirvarid Dilbazi, Nigar Rəfibəyli və yüzlərlə belə qadınlarımız öz yaradıcılıq ilhamları sayəsində elə uca zirvələr fəth ediblər ki, yüz illər keçsə də, əsərləri təzə-tər qalacaqdır.

Azərbaycan qadını bütün dövrlərdə öz istedadı, dərin zəkası və mətin iradəsi ilə seçilmiş, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması, zənginləşdirilməsi və yaşadılmasında müstəsna xidmətlər göstərmişdir. Azərbaycan qadını bəşəriyyətə ədəbi şəxsiyyətlər, görkəmli elm və sənət adamları, müdrik siyasi xadimlər bəxş etmişdir. Azərbaycan qadınının füsunkar gözəlliyi ülviyyət çələngi, ilahi nurdan yoğrulmuş ismət dəryasıdır. Azərbaycan qadını, yeri gələndə, Vətəninin azadlığı üçün bu ülviyyəti qılınca çevirməyə, döyüş paltarı geyinərək Azərbaycan oğulları ilə çiyin-çiyinə döyüşüb Vətən torpaqlarını yağı düşmənin tapdağından azad etməyə qadirdir.

Bu gün müstəqil Azərbaycanda qadınların cəmiyyətdəki yeri və rolu həm xalqımızın öz mental ənənələrinə bəslədiyi hörmət, həm də dövlətimizin yeritdiyi siyasət sayəsində yüksək qiymətləndirilir. Çağdaş Azərbaycan qadını ana olmaqla yanaşı, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmuru, xalqın seçdiyi deputatdır. Bu fəallıq Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən, qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir.

Cəmiyyətimizdə qadının artan nüfuzu və hazırkı yüksək ictimai mövqeyi Azərbaycanın müasir həyatının güzgüsüdür. Müasir Azərbaycan qadını indi nəinki ictimai-siyasi həyatda, elm, təhsil, mədəniyyət, dövlət quruculuğu və hərbi sahələrdə kişilərlə bərabər çalışır, eyni zamanda dünya miqyasında xalqımızı layiqincə təmsil edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Müstəqil Azərbaycanın qazandığı bütün böyük uğurlarda qadınların misilsiz xidmətləri vardır. Respublikamızda bir an belə ara verməyən hazırkı quruculuq işlərində ölkə xanımları, tariximizin hər bir mərhələsində olduğu kimi, bu gün də çox yaxından iştirak edir, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərin fəal iştirakçısı olaraq Vətənimizin yüksəlişinin təmin edilməsinə töhfələrini əsirgəmirlər”.***

Dövlət qadın siyasəti bu gün Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Muxtar respublikamızda yaşayan qadınlar yeni ictimai münasibətlər sisteminin, demokratiya və bazar iqtisadiyyatının, habelə sosial ədalət prinsiplərinin bərqərar olduğu cəmiyyətimizdə yüksək hüquq və azadlıqlara malikdirlər. Onlar öz bilik və bacarıqlarını yeni nəslin təlim-tərbiyəsinə və cəmiyyətin inkişafına sərf edirlər.

Hər il istedadlı qadınların əl işlərinin satış-sərgisi təşkil olunur, mədəni-kütləvi tədbirlərdə yaradıcı qadınların sənət əsərləri nümayiş etdirilir. Bu gün qədim və gündən-günə gəncləşən diyarımızın ictimai-mədəni həyatında öz fəallıqları ilə seçilən qadınların əməyi yüksək qiymətləndirilir, onlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülür.

Dünyada qloballaşma prosesinin getdiyi bir vaxtda gənc nəslin tərbiyəsində, milli-mənəvi və ailə dəyərlərimizin qorunub saxlanmasında qadınlarımızın rolu müstəsna dərəcədə artmışdır. İnanırıq ki, Azərbaycan qadınları, bütün zamanlarda olduğu kimi, bundan sonra da adət-ənənələrimizi, ailə dəyərlərimizi yaşadacaq, ictimai fəaliyyətləri ilə muxtar respublikamızın inkişafına, onun çiçəklənməsinə öz töhfələrini verəcəklər.



# Şərqdə ilk kinorejissor qadın – naxçıvanlı Qəmər Salamzadə



**Azərbaycan qadınları ölkəmizin bütün sahələrində olduğu kimi, incəsənətdə də özünəməxsus silinməz izlər buraxıblar. Onlar bir deyil, beş deyil, yüzlərlədir. Bir təsadüf nəticəsində öyrəndim ki, Azərbaycanın ilk qadın kinorejissoru Qəmər Salamzadə olub. 1908-ci ildə Culfa şəhərində maarifçi, teatr xadimi, yazıçı şair Əliqulu Qəmküsarın ailəsində dünyaya göz açıb. Uşaqlıq illəri şeir və musiqi ilə dolu bir mühitdə keçib. Qeyd etməyimiz yerinə düşər ki, Qəmər xanımın incəsənətə olan marağı onun uşaqlıq illərindən yaranıb. Böyüdüyü mühitdə atasının ən yaxın dostu və silahdaşı "Molla Nəsrəddin"in naşiri, yazıçı, şair, satirik, tənqidçi, aktyor Cəlil Məmmədquluzadə idi.**

Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, kinoşünas Aydın Kazımzadə müsahibələrinin birində Qəmər xanımın xatirələrini belə bölüşür: "Evdə mənə "çoxbilmiş", "əkəc" deyərdilər. Doğurdan da, yaşıma görə (o zaman dörd yaşım var idi) çox şeyi anlamağa, dərk etməyə başlamışdım. Yadımdadır, anamdan məni pəncərədə oturtmağını istədim; o kiçik pəncərədən gördüklərim həyata olan ilk baxışım, ilk təəssüratım idi. Hafizəmdə həkk olub qalan o lövhəni indi də xatırladıqca tüklərim ürpəşir. Tənhalıq, bomboz torpaq, tozların içində eşşəyini mahmızlayıb keçən kəndli... Küçədə sülənən kimsəsiz itlər... Ətrafa qorxa-qorxa baxıb iti addımlarla keçən qara çadraya bürünmüş bir qadın. Ən çox marağıma səbəb olan pəncərənin qabağından ötən zınqırovlu dəvələrdi. Gah da pəncərənin qabağından kefli soldatlar keçərdilər. Bir dəfə anamdan soruşdum: "O arvadlar niyə elə tələsirlər? Nədən belə qorxurlar?" Anam belə cavab verdi: "Padşahın kefli soldatlarındandır. Onlar küçədə arvadlara rast gələndə "matuşka" deyib çadralarını başlarından açır, min cür biabırçılıq eləyirlər". Anam bu sözləri deyib dərindən ah çəkdi".

Təəssüf ki, Culfada keçirdiyi uşaqlıq illəri acı sonluqla bitir. Belə ki, iki bacısı vəfat edir və anası vərəm xəstəliyinə tutulur. 1912-ci ildə atası ailəsini də götürüb Culfadan Naxçıvana köçürür. Anasının vaxtsız vəfatından sonra atası Naxçıvanda da qala bilmir. O, yeganə qızı Qəməri və qoca anası ilə qardaşı Rzaqulunu götürüb Tiflisə köçür. Burada da qara günlərin kölgəsi onlardan yan keçmir. "Molla Nəsrəddin" jurnalının nəşri ilə əlaqədar olaraq atası sıxışdırılırdı. Səbəbi isə o idi ki, "Molla Nəsrəddin" çar hökumətinin siyasətini ifşa edir. Buna görə də irtica jurnalın nəşrinə maneəçilik törədirdi. 1919-cu ildə Tiflis şəhərində gecə evə qayıdarkən atasını bolşeviklər qətlə yetirir. Bunu Qəmər xanım xatirələrində qeyd edir. 11 yaşında yetim qalan Qəmər əmisi Rzaqulu Nəcəfovun himayəsində böyüyür.

Əmisi Rzaqulu Tiflisdə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin üzvü idi və məsul işə təyinat almışdı. Eyni zamanda orada "Yeni fikir" qəzetinin baş redaktoru vəzifəsində çalışırdı. Həmin dövrdə Bakıdan Tiflisə gedən ziyalılar, ədiblər, inqilabçılar Qəmərgilin qonağı olurdular. Naxçıvanda olduğu mühit kimi, burada da Qəmərin şansı gətirmişdi. Məktəbə gedir, piano dərsləri alır, əlavə də fransız dili öyrənirdi. Evlərində tez-tez musiqi məclisləri təşkil olunur, dram teatrda tamaşalara baxmağa gedirdi.

Lakin atasının ölümündən sonra yenidən Naxçıvana qayıdan Qəmər xanım buradakı qız məktəbində təhsilini davam etdirir. Həmin illərdə qız məktəbində tamaşaya hazırlanan Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasında Telli rolunu oynayır. Qəmər xanımın istedadını görən Naxçıvan teatrının rejissoru Kazım Ziyanın dəvəti ilə tamaşalara və müsamirələrə qatılır.

Qəmər xanım 1923-cü ildə Bakıda Ali Pedaqoji İnstitutun qadınlar şöbəsinə daxil olur. Tələbəlik həyatının ilk günlərindən ədəbiyyat və dram dərnəklərinə yazılır. Dərnək tərəfindən təşkil olunan tamaşaların birində dramaturq Cəfər Cabbarlı ilə tanış olur. Cəfər Cabbarlını tanımaq onun ən böyük xəyallarından biri idi. Bu tanışlıq onda teatr və kino sənətinə marağı daha da artırır. İnstitutu bitirdəndən sonra Tiflisdə bir il müəllimlik etməsinə baxmayaraq, kino aləminə sevgisi onu çəkirdi.

Qəmər Salamzadə bilirdi ki, kinorejissor olmaq üçün böyük cürət, inad və iradə tələb olunur. Ən çətini isə mütləq Moskvaya oxumağa getmək lazım gələcəkdi. 1988-ci ildə aktyor Mustafa Mərdanovun kiçik qardaşı Səməd Mərdanovla birlikdə Moskva Dövlət Kinemotoqrafiya Texnikumuna təhsil almağa göndərilir. Orada təhsil alan bütün tələbələrə 35 manat təqaüd təyin olunsa da, ancaq kinorejissorluq sahəsində təhsil almağa gedən ilk azərbaycanlı qadın kimi Qəmər xanıma 70 manat təqaüd verilirdi.

Aydın Kazımzadə deyir: "20-ci illərin sonu, 30-cu illərin əvvəllərində "Azərkino"da film istehsalının həcmi artır. Qəmər xanım Moskvaya gedəndən sonra kinostudiyada "Gilan qızı", "Hacı Qara", "Vulkan üzərində ev", "Sevil", "İlk komsomol buruğu", "Lətif" və başqa bədii, onlarla sənədli film istehsal olunur. İşin çoxluğunu nəzərə alaraq rəhbərlik ikinci kursu bitirdikdən sonra Qəmər Salamzadəni geri çağırtdırır. 1930-cu ildə Bakıya qayıdan kimi "Qızıl kol" ("Dalğalara hücum") bədii filminin yaradıcı qrupuna köməkçi təyin edirlər. Bundan sonra Qəmər Salamzadə rejissor İqor Savçenkonun "Əlsiz adamlar" filmində rejissor assisenti işləyir. Nəhayət, Qəmər xanım 1935-ci ildə ukraynalı rejissor A.Popovla birgə "Rəqs edən bağalar" uşaq filminə quruluş verir. Artıq bu filmdə Qəmər Salamzadə bir rejissor kimi uşaqlarla işləmək bacarığını nümayiş etdirirdi".

Aydın müəllim onu da vurğulayır ki, çəkiliş meydançasında uşaqlarla işləmək bacarığını görən kinostudiya rəhbərliyi 1937-ci ildə Qəmər Salamzadə və A.Popova "Dəcəl dəstə" kinokomediyasına quruluş verməyi tapşırır. O dövrdə mərkəzi mətbuatda Qəmər xanımın fəaliyyəti geniş işıqlandırılmağa başlanılmışdı. Bakıda çıxan "Raboçiy zritel" jurnalının 1930-cu ildə buraxılmış 35-ci nömrəsinin üz qabığında Qəmər xanımın şəklini verməsi, şəklin yanında "Azərbaycanda işləyən ilk qadın kinorejissor köməkçisi – türk qadını Qəmər Nəcəfova" yazması onun bədxahlarına tutarlı cavab idi.

Müharibə dövründə sovet kinosunun ən məşhur simalarından biri olan kinorejissor Q. Aleksandrovun Azərbaycan kinostudiyasına gəlməsi bütün kollektivi sevindirir. Çoxları onunla işləmək istəsə də, bu təyinat Qəmər xanıma qismət olur. Studiyanın direktoru onu yanına çağırıb Aleksandrovla işləyəcəyini deyir.

Aydın müəllim bir incə məqamı da xatırlayır ki, onun ən yaxşı işlərindən biri 1944-cü ildə öz ssenarisi əsasında lentə aldığı "Şəfa nəğməsi"dir. Bəstəkar Tofiq Quliyev çıxışlarının birində Qəmər xanımın bu işini yüksək qiymətləndirmişdir. Ekranda təsvir olunan əhvalatlar onu kövrəltmiş, hətta bir gecənin içində filmə gözəl mahnı və musiqi parçası bəstələmişdi.

Qəmər Salamzadənin işinə olan məhəbbətinin ifadəsi idi ki, daha çox çalışır, filmlərdə dəst-xəti, hadisələrin ardıcıllığını, səliqəli montaj işi, musiqi və hadisələrin vəhdətini diqqətdə saxlayırdı.

Qeyd edək ki, Qəmər xanım dublyaj işi ilə də məşğul olub. Xarici filmləri doğma dilimizə çevirərkən dilimizin qayda-qanunlarına məsuliyyətlə yanaşmağı, işin keyfiyyətinə diqqət yetirməyi dublyaj qrupundan tələb edirdi.

Kinostudiyada işləməklə yanaşı, Qəmər xanım 1931-1932-ci illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun sənətşünaslıq şöbəsinin, 1932-1933-cü illərdə isə Moskvada Elmi-Tədqiqat Özfəaliyyət İncəsənət İnstitunun aspirantı, 1934-cü ildə teatr bölməsinin elmi işçisi olmuşdur. İncəsənət üzrə aspiranturanın dinləyiciləri arasında rejissor Rza Təhmasib, rəssamlardan Rüstəm Mustafayev, Salam Salamzadə və başqaları da var idi. Qəmər xanım məhz burada Salam Salamzadə ilə tanış olmuşdu. Sonradan bu tanışlıq onların uzun sürən xoşbəxt ömürlərini möhkəm və qırılmaz tellərlə bir-birinə bağladı.

O artıq vaxt darlığını görür, ailə qayğıları getdikcə artır, körpələrinə vaxt çatdıra bilmirdi. Digər tərəfdən də insanların haqsız əməllərindən, laqeyd münasibətlərdən cana gəlmişdi. Tez-tez kinostudiya rəhbərliyinin dəyişməsi onu daim arxa planda saxlamasına gətirib çıxarırdı. Təəssüf ki, Qəmər Salamzadə heç bir fəxri ad almadan kinodan uzaqlaşır və bir daha kinostudiyaya qayıtmır.

Azərbaycan kinosunda ilk qadın rejissor kimi fəaliyyəti ilə böyük hörmət qazanan Qəmər Salamzadə artıq əbədiyyətə qovuşub. Ancaq o, bu gün sənətsevər yoldaşlarının qəlbində yaşayır.

***P.S.*** Qəmər Salamzadə haqqında bu yazını hazırlamaqda bizə öz köməyini əsirgəməyən Əməkdar incəsənət xadimi, kinoşünas Aydın Kazımzadəyə minnətdarlığımızı bildiririk.

**Aidə İBRAHİMOVA**

## Azərbaycan qadını: gələcəyə inamla



*Azərbaycan qadını hər zaman cəmiyyətimizin ön sıralarında olmuş, ailə şəfqəti, dövlət qayğısı ilə əhatə edilmiş və yüksək dəyər görmüşdür. Çünki vətənpərvər və mübarizdir – düşməninə qarşı qardaşı, yoldaşı ilə çiyin-çiyinə savaşar; sadiq və fədakardır – həyatını dəyərlərinə, övladlarına, ailəsinə və amalına fəda edir; nikbin və əzmkardır – bütün çətinliklərə dözməyi bacarır; müdrikdir – qarşısına çıxan hər tikana baxıb gülü, hər qaranlığa baxıb arxasından gələn işıqlı səhəri görür; mərhəmətlidir – incitməyi deyil, bağışlayıcı olmağı seçir, elə buna görə də xeyirxahlıq mücəssiməsidir əsl Azərbaycan qadını.*

Dövlət müstəqilliyimizin bərpasından keçən 34 il ərzində Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, ölkəmizin sosial-iqtisadi, intellektual-mədəni potensialının artırılmasına dəyərli töhfələr vermiş, elm, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə qazandığı uğurları ilə öz nüfuzunu ilbəil artırmaqla cəmiyyətdə böyük etimad qazanmışdır. Bu potensialın üzə çıxarılması və inkişaf etdirilməsi ölkəmizdə dövlət səviyyəsində qadın siyasətinin əsasını qoyan Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. O, ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırmış, onların hərtərəfli fəaliyyətinə geniş meydan vermiş, nəticə olaraq müasir lider qadınların yetişməsi üçün mühüm stimul olmuşdur. Onların ən gözəl nümunəsi kimi Mehriban xanım Əliyeva hərtərəfli fəaliyyəti ilə həm ölkədə, həm də beynəlxalq aləmdə Azərbaycan qadının nüfuzunu daha da yüksəklərə qaldırmışdır. Bu gün dünya miqyasında Azərbaycan mədəniyyətinin və tarixinin təbliğatçısı rolunu oynayan Mehriban xanım Əliyeva ailə dəyərlərinə yüksək qiymət verir: *"Mən öz ailəmi çox sevirəm və ailə ənənələri ilə hesablaşıram. Əgər evdə qarşılıqlı anlaşma, qarşılıqlı dəstək və hörmət varsa, hesab edirəm ki, qalan bütün məsələlər yoluna qoyulacaq."*

Ailə dəyərlərinə bağlılığı ifadə edən bu fikir gənc nəslə ailənin müqəddəsliyi və qorunmasının zəruriliyi kimi mental dəyərlərin aşılanmasında mühüm əhəmiyyət daşıyır. Bu, əsl Azərbaycan xanımının həyat kodeksidir. Hansı ki tarixboyu bütün digər xidmətlərin fövqündə duran analıq missiyasını qoruyub saxlayıb. Bu müqəddəs missiyanı ləyaqətlə daşıyan müdrik analar Vətənə vəfa borcunu qanları ilə verərək and yerimizə çevrilən şəhidlərimizi, canlarından pay verməyi gözə alan fədakar qazilərimizi, elm, siyasət, diplomatiya, mədəniyyət, idman, texnologiya sahələrində zəkası, istedadı, qələmləri ilə dövlətçiliyimizə və xalqımıza sədaqətlə xidmət edən gənclərimizi yetişdirmişlər. Bugünkü qadınlarımız sırasında lider analar, şair analar, xeyriyyəçi analar da var, şəhid anaları da var, qazi anaları da. Onlara hər birimiz ehtiram göstəririk.

Respublikamızda xanımlara diqqət və qayğının ifadəsidir ki, hazırda müəllimlərin 80, həkimlərin 61, elmi işçilərin isə 50 faizi zərif cinsin nümayəndələridir.

Ölkəmizdə gender siyasətinin gücləndirilməsi, qadınların cəmiyyətdə rolunun yüksəldilməsi üçün ardıcıl tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, mühüm dövlət qurumlarında, seçkili orqanlarda, idman sahəsində onlar uğurla təmsil olunmaqdadır. Qadınların müxtəlif qurumlarda, o cümlədən ali qanunvericilik orqanlarında da iştirak faizi ildən-ilə artmaqdadır.

Müxtəlif məsul vəzifələrdə çalışan xanımlar, həmçinin millət vəkilləri, incəsənət, elm və pedaqoji sahənin yüzlərlə zərif, lakin fədakar nümayəndələri Azərbaycanda gender məsələsinin diqqət mərkəzində olduğunu göstərir.

Qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan bütün imkanların genişləndirilməsi ölkə Prezidenti cənab İlham Əliyevin dövlət siyasətində müəyyən etdiyi prioritet istiqamətlərdəndir. 2006-cı ildə "Gender bərabərliyinin təminatları haqqında", 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunlarının qəbul olunması da bunu təsdiq edir. Qadınların hər il müxtəlif orden və medallarla təltif edilmələri, onlara fəxri adların verilməsi bu zərif cinsin nümayəndələrinin əzmini, çalışqanlığını, mübarizliyini və gücünü artırır.

**Zeynəb QULİYEVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Azərbaycan Respublikasının Əməkdar müəllimi***

## “Şərq qapısı” qəzetinin gənc əməkdaşları “100 ilin qəhrəmanları” kitabını şəhid analarına təqdim ediblər

8 Mart – Beynəlxalq Qadınlar Günü ərəfəsində “Şərq qapısı” qəzetinin hazırladığı “100 ilin qəhrəmanları” kitabı qəzetin gənc əməkdaşları tərəfindən şəhid analarına təqdim olunub.

Qeyd edək ki, kitab Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Tədbirlər Planına uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə nəşr edilib.

“Şərq qapısı” qəzetinin “100 ilin qəhrəmanları” layihəsi çərçivəsində hazırlanan kitabda Vətən müharibəsi və sonrakı hərbi əməliyyatlarda şəhid olmuş igidlərimizin valideynlərinin xatirələri yer alıb. 44 cümlədən ibarət bu xatirələr şəhidlərimizə olan sonsuz sevgi və ehtiramın ifadəsidir.

Kitabda 150 şəhid haqqında yazılar toplanıb və muxtar respublikanın bütün şəhid ailələrinə təqdim olunacaq.





## Ordubad şəhərində yerləşən “Ərbabın iş yeri” və ona bitişik tarixi bina bərpa olunacaq



“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planında öz əksini tapmış layihələr, habelə investisiya layihələri Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən diqqətdə saxlanılır, bu istiqamətdə bir sıra işlər həyata keçirilir.

Həyata keçirilən tədbirlərin davamı olaraq Ordubad şəhərində yerləşən “Ərbabın iş yeri” və ona bitişik tarixi bina bərpa ediləcək. Bununla bağlı artıq satınalma elan olunub.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən 2024-cü ildə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) çərçivəsində Ordubad şəhərində yerləşən “Ərbabın iş yeri” və ona bitişik tarixi binanın əvvəlki vəziyyətinə qaytarılması və əsaslı təmiri üzrə layihə-smeta sənədlərinin hazırlanması məqsədilə satınalma keçirilmiş və layihə smeta sənədləri qanunauyğun olaraq ekspertizadan keçirilmişdir. Təsdiq edilmiş layihəyə uyğun olaraq satınalma keçirilir. Satınalma yekunlaşdıqdan sonra bərpa işlərinə başlanılacaq.

Məlumat üçün qeyd edək ki, bərpa işlərinin iki il müddətinə tamamlanması nəzərdə tutulur.

## Naxçıvanda təşkil olunan “Fotojurnalistika” mövzusunda təlimə yekun vurulub

Naxçıvan Təlim Mərkəzi və “Şərq qapısı” qəzetinin birgə təşkilatçılığı ilə təşkil olunan “Fotojurnalistika” mövzusunda təlimə yekun vurulub.

Təlimin əsas məqsədi muxtar respublikada fotoqrafiya sahəsində fəaliyyət göstərən şəxslərin bilik və bacarıqlarını artırmaq, onların müasir fotojurnalistika trendləri ilə tanış olmalarına şərait yaratmaqdan ibarət olub. Bir sıra dövlət qurumlarında fəaliyyət göstərən fotoqrafların da iştirak etdiyi təlimin ilk iki günündə Azərbaycan Fotoqraflar Birliyinin təsisçisi, tanınmış fotoqraf Mirnaib Həsənoğlu tərəfindən peşəkar fotojurnalistikanın əsas prinsipləri, reportaj çəkilişlərinin incəlikləri və foto vasitəsilə hadisələri düzgün çatdırmağın yolları öyrədilib.

Təlimin son günü iştirakçılar Ordubad rayonunda öyrəndikləri nəzəri bilikləri praktiki məşğələlərdə yerinə yetirib, ustad fotoqrafın tövsiyələrindən yararlanaraq peşəkar yanaşma metodlarından istifadə ediblər. İlk olaraq təlim iştirakçıları Kotam kəndində olub, Zəngəzur dəhlizi istiqamətində olan yolu və bu tarixi anları fotolarda əbədiləşdiriblər. Qeyd olunub ki, bu dəhliz açıldıqda təkcə Naxçıvan blokadadan çıxmayacaq, eyni zamanda yeni tarixi dövr başlayacaq.



Daha sonra təlim iştirakçıları Ordubad şəhərində Tarix-Diyarşünaslıq muzeyi (Qeysəriyyə), Yusif Məmmədəliyevin ev muzeyi, M.S.Ordubadinin ev muzeyi, M.T.Sidqinin ev muzeyi, Ordubad mədrəsəsi, Buxzana binası, Məbəd abidəsi, Sərşəhər məhəlləsi (Məscid, Çinar, meydan kompleks şəkildə), Mingis məhəlləsi, Anbaras məhəlləsi, Ordubad hamamı, Təkeşiyi məscidi və Cümə məscidini lentə alıblar.

Təlimin sonunda təşkilatçılar tərəfindən iştirakçılara sertifikat təqdim olunub. Mərasimdə çıxış edən “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova iştirakçıları salamlayaraq fotojurnalistikanın elementlərindən söz açıb. Foto çəkilişi zamanı fotoqrafların işinin əhəmiyyətindən danışan Sara Əzimova bu sahənin quruculuğunun və düzgün təşkilinin vacibliyini diqqətə çatdırıb, cəmiyyətimizin fotoşəkillər vasitəsilə effektiv işıqlandırılması, obyektlərin fotoşəkillərinin düzgün çəkilməsi və bu zaman səmərəli ünsiyyətin qurulmasına dair üsullar haqqında ətraflı məlumat verib: “Müasir dövrdə fotojurnalistikanın yeni növləri, qolları yaranır və bu sahə getdikcə inkişaf edir. Naxçıvanda bu sahədə olan peşəkar fotoqraflar da həmin inkişafdan uzaq qalmamalı, davamlı özlərini yeniləməli və ən son üsullardan istifadə edərək işlərində yüksək peşəkarlıq nümayiş etdirməlidirlər. Bu baxımdan da deyə bilərəm ki, keçirdiyimiz təlim çox məhsuldar oldu”.

Naxçıvan Təlim Mərkəzinin idarə heyətinin sədri Tağı Tağızadə çıxışında “Şərq qapısı” qəzeti ilə birgə təşkil edilən təlimin önəmindən danışıb, muxtar respublikada fotojurnalistikanın müasir dövrün tələblərinə uyğun olaraq daha çox keyfiyyətli fotoxəbər istehsalının təmin edilməsinə yönələn təşəbbüsü yüksək dəyərləndirib, keçirilən təlimin fotojurnalistlərin bu növ informasiyanın əldə olunması, ötürülməsi və yayımı fəaliyyətində peşəkarlığının və məsuliyyətinin artırılmasına xidmət etdiyini vurğulayıb.

Bu istiqamətdə peşəkar fotoqrafların üzərinə ciddi məsuliyyət düşdüyünü bildirən T.Tağızadə medianın bu sahəsinə böyük diqqət göstərilməli olduğunu, həmçinin fotojurnalistlərin bu təlimlərə cəlbinin Naxçıvanda fotoqrafiya sənətinin inkişafında müstəsna rolunu qeyd edib.

### Elan

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Naxçıvan Dövlət Universiteti aşağıdakı dekan və kafedralar üzrə müsabiqə elan edir:

***Dekan vəzifəsini tutmaq üçün***

1. Xarici dillər fakültəsi
2. Tibb fakültəsi
3. Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsi
4. İncəsənət fakültəsi

***Kafedra müdiri vəzifəsini tutmaq üçün***

1.Nəqliyyat mühəndisliyi və texniki fənlər kafedrası
2. Rus və şərq dilləri kafedrası
3. Ümumi hüquq kafedrası
4.Xalq çalğı alətləri kafedrası

***Kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün***

1.Musiqinin tarixi və nəzəriyyəsi – dosent – 1 yer (0,5 ştat)
2.Məşqçilik kafedrası – dosent – 1 yer (0,5 ştat)
3.Klinik fənlər və hərbi tibb kafedrası – dosent – 1 yer (0,5 ştat).

Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

***Ünvan: Naxçıvan şəhəri, universitet şəhərciyi***
***Telefon: (036)545-23-66/10-01***

### *İtmişdir*

Babək rayonu, Sirab kənd sakini Həsənov Məmmədəli Mustafa oğlunun adına olan JN-0087 nömrəli, 10300038 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd sakini İbrahimov İbrahim Əli oğlunun adına verilmiş JN-109$^{A}$ nömrəli, “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Didivar kənd sakini Əliyev Kazım Hacı oğlunun adına olan JN-268$^{A}$ nömrəli, “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Biçənək kəndində Kərimov Mirismayıl Məmməd oğlunun adına verilmiş JN-090 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

1926602 nömrəli inzibati xəta haqqında protokol blankı və 1306342 nömrəli inzibati tənbehvermə haqqında qərar blankları itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Yaycı kəndində yaşamış Zeynalov Məmməd Zeynal oğluna məxsus JN-792$^{A}$ və JN-792$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” lər itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini İsmayılov Fizuli Allahverdi oğlunun adına verilmiş JN-600$^{A}$ nömrəli, “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

**Baş redaktor:**
SARA ƏZİMOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 76

***Nömrəyə məsul:*** **Ramiyə Əkbərova, Rafiq Təhməzov, Türkanə Əsədova**
***Dizayner:*** **Lətif Zeynalov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*